

Mən fəxr edirəm ki, Bakı Dövlət Universitetinin məzunuyam...
Ümummilli Lider HEYDƏR ƏLİYEV

Qəzet 1929 -cu ildən nəşr olunur. Təsisçi: Bakı Dövlət Universiteti 31 mart 2022-ci il

# BAKI UNİVERSİTETİ

MİLLİ TƏRƏQQİ ELM VƏ TƏHSİL OCAĞINDAN BAŞLAYIR

**BDU İslam Dünyası Universitetləri Federasiyasına üzv qəbul edilib**

➔Səh.3

**ADA Universitetinin təşəbbüsü ilə yenidən nəşr olunmuş "Vətən dili" dərsliyinin müzakirəsi keçirilib**

➔Səh.5

**BDU-da "Elm günləri"nə start verilib**

➔Səh.6

**BDU əməkdaşları arasında "İlin alimi" müsabiqəsinin qalibləri açıqlanıb**

➔Səh.7

**İqtisadiyyat və Humanitar Kollecdə Novruz bayramı qeyd edilib**

➔Səh.8

**31 Mart - Azərbaycanlıların Soyqırımı Gününə həsr olunmuş Beynəlxalq elmi konfrans**

➔Səh.13

**BDU-da AIESEC təşkilatının təcrübə proqramları haqqında məlumatlandırıcı tədbir**

➔Səh.14



**Türkiyə Respublikasının rektorlardan ibarət nümayəndə heyəti ilə görüş keçirilib**

➔Səh.2



**BDU-nun rektoru Elçin Babayev Məşvərət Şurasının üzvləri ilə görüşüb**

➔Səh.2



**MEDİA və BDU yeni layihələrə başlayır**

➔Səh.3



**BDU-da "I Milli Texnologiya Sərgisi" təşkil olunub**

➔Səh.7



**"BDU - elm və təhsilin qovuşduğu məkan"**

➔Səh.7



## BDU-da Novruz bayramına həsr olunmuş elmi sessiya

***Martın 18-də Bakı Dövlət Universitetində Novruz bayramına həsr olunmuş elmi sessiya keçirilib. Elmi sessiyada Novruzun milli, astronomik və etnoqrafik aspektləri izah edilib.***

BDU-nun Azərbaycan şifahi xalq ədəbiyyatı kafedrasının müdiri, filologiya elmləri doktoru, professor Səhər Orucova “Azərbaycanda Novruz ənənələri” adlı məruzə edib. Səhər Orucova vurğulayıb ki, hər bir xalqın mədəniyyəti, mənəvi əxlaqı, dünyagörüşü onun bayramlarında öz əksini tapır. Bu baxımdan çillələrin, Novruz və çərşənbələrinin xalqımızın bayram təqvimlərində mühüm yeri var.

Səhər Orucova qeyd edib ki, Novruz nə məzhəb, nə də din bayramıdır. Bu bayram baharın gəlməsi münasibətilə qeyd edilir. Bir sıra xalqlar yaz fəslinin gəlməsini təbiətin canlanması ilə bağlayır, bu münasibətlə şənliklər keçirirlər. Azərbaycan, Türkiyə, Özbəkistan, Türkmənistan, Qazaxıstan, Qırğızıstan, Albaniya, Makedoniyada gecə ilə gündüzün bərabərləşdiyi gün bayram kimi qeyd edilir. Hətta İraq və Əfqanıstanda astronomik Günəş təqviminə əsasən, Novruz martın 21-də rəsmi şəkildə yeni ilin başlanğıcı kimi qeyd olunur.

Novruz adətləri, şirniyyatları, personajları barədə ətraflı məlumat verən Səhər Orucova bildirib ki, Azərbaycan xalqı milli dəyərlərə və ənənələrə sadiqdir. Azərbaycan dövlətini bu dəyərlər üzərində quran Ümummilli Lider Heydər Əliyev Novruz bayramını xalqımızı tarixən bütövləşdirən, onun varlığını birlik, böyüklük və yaşam gücü ilə qidalandıran fenomen kimi qiymətləndirib. Bu dəyərlər Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən davam etdirilir. Azərbaycan Respublikasının I Vitse-prezidenti, Heydər Əliyev Fondunun Prezidenti, UNESCO-nun və ISESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın təşəbbüsü ilə 2009-cu ilin sentyabrında Novruz bayramı UNESCO-nun Qeyri-maddi mədəni irs siyahısına daxil edilib. BMT-nin Baş Məclisi isə martın 21-ni “Beynəlxalq Novruz Günü” elan edib.

Astrofizika kafedrasının müdiri, fizika-riyaziyyat elmləri namizədi, dosent Kəmalə Alışeva “Novruza astronomik baxış” adlı məruzə təqdim edib. O vurğulayıb ki, Novruzun tarixi, adət-ənənələri haqqında çox geniş yazılır, lakin bu bayramın qeyd olunması məhz astronomik hadisələrlə əlaqəlidir.

Kəmalə Alışeva yaz bərabərliyi gününün yaranması və fəsillərin bir-birini əvəz etməsinin də elmi izahını verib.

*(ardı 8-ci səh.)*



# "Ümummilli Lider Heydər Əliyev irsi haqqında elektron resurslar" mövzusunda elmi seminar

***Martın 16-da Kitabxanaçılıq-informasiya fakültəsində professor-müəllim heyətinin, doktorant və magistrantların iştirakı ilə 27 Mart - Azərbaycan Respublikasında "Elm günü" ilə bağlı silsilə tədbirlər çərçivəsində "Ümummilli lider Heydər Əliyev irsi haqqında elektron resurslar" mövzusunda elmi seminar keçirilib.***

Elmi seminarda Kitabxana resursları və informasiya axtarış sistemləri kafedrasının magistrantı Aydan Şahmarova mövzu ilə bağlı məruzə edib.

Tədqiqatçı əvvəlcə Ümummilli Liderin Azərbaycanda kitabxana işinə diqqət və qayğısından bəhs edib, Ulu Öndərin "Kitabxana xalq, millət üçün, cəmiyyət üçün müqəddəs bir yer, mənəviyyat, bilik, zəka mənbəyidir. Ona görə də kitabxanaya daimi hörmət xalqımızın mədəniyyətini nümayiş etdirən amillərdən biridir" kəlamını bir daha xatırladıb.

Azərbaycan Respublikasının Prezidentinin İşlər İdarəsinin Prezident Kitabxanası, Heydər Əliyev Fondu, Heydər Əliyev İrsini Araşdırma Mərkəzi və Milli Kitabxananın elektron resursları əsasında hazırlanmış məruzədə Ulu Öndər Heydər Əliyevin həyat və fəaliyyətini əks etdirən bioqrafik məlumatlar, elektron sənəd topluları, zəngin məlumat bazaları təhlil olunub.

Qeyd edilib ki, bu resurslar vasitəsilə istifadəçilər sadə və ya geniş axtarış sistemindən yararlanaraq Heydər Əliyevin əsərlərini müəlliflə, haqqında olan ədəbiyyatı isə predmet, sərlövhə və ya açar sözlə axtarıb tapa, həmçinin Ümummilli Liderin çapdan çıxan əsərləri və haqqında çapdan çıxmış kitabların, məqalələrin, dissertasiya və digər ədəbiyyatların tam mətnindən istifadə edə bilərlər. Tədqiqatçı Heydər Əliyev İrsini Araşdırma Mərkəzi tərəfindən təşkil olunmuş Ümummilli Liderin zəngin irsini - çıxış, müsahibə, görüş, bəyanat və məktublarının mətnlərini 50 dildə geniş auditoriyaya təqdim edən "Heydər Əliyev İrsi" adlı Beynəlxalq Elektron Kitabxananın Azərbaycan həqiqətlərinin dünyaya çatdırılması, ölkəmizin təbliği baxımından mühüm platforma olduğunu bildirib. Məruzədə davamlı olaraq yenilənən və inkişaf etdirilən elektron resursların Ulu Öndər Heydər Əliyev irsinin öyrənilməsində mühüm əhəmiyyət kəsb etdiyi xüsusi vurğulanıb.

Aydan Şahmarovanın məruzəsi maraqla dinlənilib, məruzəçiyə çoxsaylı suallar ünvanlanıb.

# BDU-nun rektoru Elçin Babayev Məşvərət Şurasının üzvləri ilə görüşüb



***Martın 17-də Bakı Dövlət Universitetinin rektoru Elçin Babayev Novruz bayramı münasibəti ilə Məşvərət Şurasının bir qrup üzvünü qəbul edib.***

BDU-nun rektoru Universitetin qocaman alimlərini Novruz bayramı münasibəti ilə təbrik edib, onlara cansağlığı arzulayıb. Elçin Babayev BDU-nun "qızıl fond"u hesab edilən ağsaqqal alimlərin hər zaman diqqət və qayğı ilə əhatə olunduğunu, onların təcrübəsinə böyük ehtiyac duyulduğunu bildirib.

Rektor vurğulayıb ki, BDU-da geniş islahatlar həyata keçirilir. BDU-nun bütün fakültələrində dekan və kafedra müdiri seçkiləri başa çatıb. Universitetin Elmi Kitabxanası, kadr sistemi və sənəd dövriyyəsinin elektronlaşdırılması, texniki təchizatın gücləndirilməsi işləri həyata keçirilir. Rektor yenilənmə prosesinin davamlı olacağını, bu istiqamətdə ağsaqqal alimlərdən təkliflər gözlədiyini bildirib.

Görüşdə çıxış edən ağsaqqal alimlər təbrikə görə minnətdarlıqlarını bildirib, BDU-da tədris prosesinin daha yaxşı qurulması üçün təkliflərini verib, islahatlar prosesinə dəstəklərini ifadə ediblər.

# Rektor qazaxıstanlı tələbələrlə görüşüb



***Martın 3-də Bakı Dövlət Universitetinin rektoru Elçin Babayev yaz semestrində BDU-da təhsil alan Qazaxıstan Respublikasının Şahmərdan Yesenov adına Xəzər Dövlət Texnologiyalar və Mühəndislik Universitetinin (XDTMU) tələbələri ilə görüşüb.***

Rektor Elçin Babayev qazaxıstanlı tələbələrə ölkənin ən böyük ali məktəbi olan BDU haqqında geniş məlumat verib, onlara təhsillərində uğurlar arzulayıb. BDU-nun rektoru həmçinin tələbələrin yaşayış şəraiti, təhsili, qidalanması ilə maraqlanıb, onlara universitetin ictimai həyatında aktiv iştirak etməyi tövsiyə edib.

Qeyd edək ki, XDTMU-nun 4 tələbəsi martın 1-dən yaz semestrinin sonunadək BDU-da təhsil alacaq. Bu, BDU ilə XDTMU arasında 2018-ci il 5 may tarixində bağlanmış əməkdaşlıq memorandumu əsasında həyata keçirilir.

XDTMU-nun hüquqşünaslıq ixtisası üzrə təhsil alan tələbələri - Akjunis Tolemis və Zahid Talıbov BDU-nun Hüquq fakültəsində ailə hüququ, dəniz və enerji hüququ dərslərində iştirak edəcəklər.

XDTMU-nun riyaziyyat müəllimliyi (ingilis bölməsi) ixtisası üzrə təhsil alan tələbələri - Qalımjan Saktaqanov və Bayırjan Kuanşbekuli isə BDU-nun Mexanika-riyaziyyat fakültəsində funksional analiz, diskret riyaziyyat, riyazi məntiq dərslərinə qatılacaqlar.

# Türkiyə Respublikasının rektorlardan ibarət nümayəndə heyəti ilə görüş keçirilib



***Martın 11-də Bakı Dövlət Universitetinin rektoru Elçin Babayev ölkəmizdə səfərdə olan Türkiyə Respublikasının nümayəndə heyəti ilə görüşüb.***

Görüşdə Türkiyənin Tokat Qaziosmanpaşa Universitetinin rektoru professor Bünyamin Şahin, Beynəlxalq Balkan Universitetinin rektoru professor Mehmet Dursun Erdem, "Sıla" şirkətinin müdiri Harun Yurdakul və Türkiyənin Azərbaycandakı səfirliyinin ikinci katibi Gözde Çolak iştirak ediblər.

Qonaqları salamlayan BDU-nun rektoru Elçin Babayev Türkiyə-Azərbaycan qardaşlığının çox yüksək səviyyədə olduğunu qeyd edib. 103 yaşlı BDU-nun Azərbaycanın ən böyük və ilk universiteti olduğunu vurğulayan Elçin Babayev bildirib ki, son zamanlar Universitetin elektronlaşdırılması, elmi nəticələrin tətbiqi və kommersiyalaşdırılması istiqamətində böyük işlər görülür. BDU-nun strukturu barədə məlumat verən rektor bildirib ki, Universitetdə elmin bütün sahələri üzrə kadr hazırlığı həyata keçirilir. BDU-da Fizika problemləri və Tətbiqi-riyaziyyat elmi-tədqiqat institutları fəaliyyət göstərir: "BDU-da multidissiplinar elmlər üzrə institutların yaradılmasında da maraqlıyıq. BDU tədqiqat universiteti adını almağa hazırlaşır".

Rektor Türkiyə universitetləri ilə əməkdaşlığın və qarşılıqlı əlaqələrin möhkəmləndirilməsində maraqlı olduğunu qeyd edib: "Türkiyə universitetləri ilə "Erasmus", "Mövlanə" mübadilə proqramları çərçivəsində əməkdaşlığa, ikili diplom proqramlarına çox üstünlük veririk. Türkiyə universitetləri ilə birgə tədqiqatlar apara, akademik heyətin və tələbələrin mübadiləsini həyata keçirə bilərik".

Elçin Babayev Beynəlxalq Balkan Universitetində Azərbaycan kafedrasının, Tokat Qaziosmanpaşa Universiteti ilə isə birgə ortaq elm-tədris qurumu yaradılmasını təklif edib.

Beynəlxalq Balkan Universitetinin rektoru professor Mehmet Dursun Erdem isə qeyd edib ki, Azərbaycanda 7-ci Sosial Elmlər Konqresi keçiriləcək. Konqresdə Avropadan, Türkiyədən, Orta Asiyadan, digər ölkələrdən alimlər iştirak edəcəklər. Azərbaycanın Qarabağ zəfərinin türk dünyasında böyük sevinc yaşatdığını vurğulayan Mehmet Dursun Erdem Sosial Elmlər Konqresi çərçivəsində elmi müzakirələrlə yanaşı, Qarabağla bağlı həqiqətlərin də alimlərin nəzərinə çatdırılacağını vurğulayıb. O, BDU alimlərini Konqresin işində aktiv iştiraka dəvət edib.

Tokat Qaziosmanpaşa Universitetinin rektoru professor Bünyamin Şahin də öz növbəsində rəhbərlik etdiyi təhsil müəssisəsi barədə məlumat verib, BDU ilə əməkdaşlığın inkişafında maraqlı olduqlarını vurğulayıb.

Görüşdə hər iki universitetlə əməkdaşlığın perspektivləri barədə müzakirələr aparılıb.

Qeyd edək ki, Beynəlxalq Balkan Universiteti və ADA Universitetinin birgə təşkilatçılığı ilə bu ilin 2-4 iyun tarixlərində Azərbaycanda INCSOS 7-ci Qarabağ Beynəlxalq Sosial Elmlər Konqresi keçiriləcək. Tədbir Türkiyə Böyük Millət Məclisinin sədri Mustafa Şentop və Azərbaycan Respublikası Milli Məclisinin sədri Sahibə Qafarovanın himayəsi ilə keçirilir.

Konqresə hazırlıq çərçivəsində Beynəlxalq Balkan Universitetinin rektoru professor Mehmet Dursun Erdem, Tokat Qaziosmanpaşa Universitetinin rektoru professor Bünyamin Şahin Azərbaycanda səfərdədirlər.

# Dövlət Vergi Xidməti ilə əməkdaşlıq genişləndirilir

***Martın 3-də Bakı Dövlət Universitetinin rektoru Elçin Babayev İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin (DVX) İnsan Resursları Baş İdarəsinin rəisi Aytən Kərimova və Xidmətin Tədris Mərkəzinin rəisi vəzifəsini icra edən Mirəli Kazımovla görüşüb.***



Görüşdə BDU ilə DVX arasında əməkdaşlıq əlaqələrinin gücləndirilməsinə dair hazırlanmış Tədbirlər Planı çərçivəsində BDU-da vergi hüququ ixtisası üzrə kadr hazırlığı, Vergi Hüququ Klinikasının yaradılması, istehsalat təcrübəsinin təşkili, tələbələrin DVX orqanlarında karyera proqramlarına cəlb olunması ilə bağlı məsələlər müzakirə olunub.

BDU-nun rektoru Elçin Babayev DVX ilə səmərəli əməkdaşlığın qurulduğunu vurğulayıb. Qeyd edib ki, həm dövlət, həm də özəl sektorda vergi hüququ və vergi vəkilliyi üzrə mütəxəssislərə böyük ehtiyac var. BDU-nun Hüquq fakültəsində bu ixtisasların yaradılması və kadrların hazırlanmasının vergi orqanlarının kadr təminatına böyük töhfə olacağını bildirib.

DVX-nin İnsan Resursları Baş İdarəsinin rəisi Aytən Kərimova təmsil etdiyi qurumun kadr siyasətinin təkmilləşdirildiyi, bunun üçün BDU ilə əlaqələrə böyük önəm verildiyini qeyd edib. Bildirib ki, əməkdaşlıq çərçivəsində BDU-da “Karyera günləri”nin, tələbələr üçün “Yay məktəbi”nin təşkili, təlimlərin keçirilməsi nəzərdə tutulur.

DVX-nin Tədris Mərkəzinin rəisi vəzifəsini icra edən Mirəli Kazımov vurğulayıb ki, vergi sisteminin müasir dövrün tələblərinə uyğun şəkildə inkişafına, bu istiqamətdə dövlət, biznes subyektləri üçün faydalı olan müxtəlif layihələrin həyata keçirilməsinə xüsusi diqqət yetirilir. BDU ilə sıx münasibətlərin qurulması da məhz bu işə xidmət edir.

# BDU İslam Dünyası Universitetləri Federasiyasına üzv qəbul edilib

**Bakı Dövlət Universiteti İslam Dünyası Təhsil, Elm və Mədəniyyət Təşkilatının (ICESCO) nəzdində fəaliyyət göstərən İslam Dünyası Universitetləri Federasiyasına (FUIW) üzv qəbul edilib.**

Beynəlxalq əməkdaşlığın inkişaf etdirilməsi və beynəlxalq elm və təhsil təşkilatları, dünyanın nüfuzlu universitetləri ilə əlaqələrin genişləndirilməsi BDU-nun inkişaf strategiyasının prioritet istiqamətlərindəndir. FUIW-ə üzvlük BDU-nun akademik və inzibati imkanlarının genişlənməsinə, elmi tədqiqatların inkişafına və təcrübə mübadiləsinin reallaşmasına şərait yaradacaq. Bu sahəyə yönəlmiş proqram və layihələrin həyata keçirilməsi isə beynəlxalq əməkdaşlığın gücləndirilməsi və təşviq edilməsi istiqamətində mühüm rol oynayacaq.

1987-ci ildə Mərakeşin Rabat şəhərində əsası qoyulmuş İslam Dünyası Universitetləri Federasiyasının əsas məqsədi bütün sahələrdə elmi tədqiqatların səviyyəsini yüksəltmək, təhsil, elm, mədəniyyət və texnologiya sahələrində təcrübə mübadiləsi artırmaq, islam ölkələrində elmi və texnoloji inkişafdan faydalanmaq üçün ali təhsilin təkmilləşdirilməsi və inkişafına yardım etməkdir.

# BDU-da ICESCO-nun Azərbaycanda ilk ixtisaslaşdırılmış kafedrası yaradılır

***Bakı Dövlət Universitetində İslam Dünyası Təhsil, Elm və Mədəniyyət Təşkilatının (ICESCO) Azərbaycanda ilk ixtisaslaşdırılmış Biotibbi materiallar kafedrası yaradılır. Bu, BDU ilə ICESCO arasında imzalanmış sazişdə nəzərdə tutulur.***

Biotibb - tibb elminin bioloji və fizioloji prinsiplərini klinik praktikaya tətbiq edən bir tədqiqat sahəsi kimi elmdə aparıcı mövqe tutur. Bu, BDU-nun təbiət elmləri sahəsində müəyyənləşdirdiyi 5 əsas prioritet elmi istiqamətlərdən birinə (biologiya və həyat elmləri istiqaməti çərçivəsində) də aiddir. Təsadüfi deyildir ki, BDU-da yeni yaradılmış Tədqiqat, İnkişaf və İnnovasiyalar üzrə Mükəmməllik Mərkəzinin (Excellence Center) nəzdində "Biomühəndislik", "Mikrobiologiya və virusologiya" elmi-tədqiqat laboratoriyaları da fəaliyyət göstərir.

Biotibbi materiallar kafedrasının yaradılmasında məqsəd sənaye və yüksək səviyyəli tədqiqatçılar, ali təhsil müəssisələri və burada çalışan alimlər arasında əlaqələri, "təhsil-elm-sənaye" üçlüyünün qarşılıqlı inteqrasiyasını inkişaf etdirmək, tələbə və gənc alimləri biotibbi materialların alınması, tədqiqi və tətbiqi ilə bağlı araşdırmalara cəlb etmək, həmçinin bu sahədə beynəlxalq əməkdaşlığı genişləndirməkdir. Kafedrada bioloqların, kimyaçıların, fiziklərin, tibb sahəsi üzrə çalışanların və sənaye sektorunun nümayəndələrinin biotibbi tətbiqlər üçün potensial antimikrobial xüsusiyyətlərə malik qabaqcıl materialları hazırlamaq üçün səyləri birləşdiriləcəkdir.

Kafedrada akademik heyətlə sənayedən olan mütəxəssislərin birgə əməkdaşlığı sayəsində tibbin müxtəlif sahələri üçün perspektiv sayılan nanomodifikasiya olunmuş materialların laboratoriyadan istehsalata klinik transferinin məqsədyönlü və effektiv şəkildə həyata keçirilməsinə şərait yaradılacaqdır. Beynəlxalq fənlərarası şəbəkənin yaradılması yolu ilə nanosistemlərin ilkin dizaynının hazırlanması, effektivliyinin klinikadan əvvəlki sınaqlarının aparılması, farmakokinetika və toksikliyinin müəyyən edilməsinə də nail olunacaqdır.

Kafedranın yaradılması təkcə Azərbaycanda deyil, əməkdaşlıq çərçivəsində islam dünyası ölkələrində biotibb elmi istiqamətinin inkişafına da əlavə təkan verəcəkdir. Kafedra biotibbi materiallar üzrə tədqiqat işlərinin aparılmasına, ICESCO-ya üzv dövlətlərdən olan tələbə və gənc alimlərin bu araşdırmalara cəlb edilməsinə və müxtəlif ölkələrlə bu sahədə əməkdaşlığın qurulmasına da yardım göstərəcəkdir.

# MEDİA və BDU yeni layihələrə başlayır

***Martın 30-da Jurnalistika fakültəsinin dekanı Vüqar Əliyev, Yeni media və kommunikasiya nəzəriyyəsi kafedrasının müdiri Xatirə Hüseynova, Beynəlxalq jurnalistika və informasiya siyasəti kafedrasının müdiri Aynur Nəsirova Medianın İnkişafı Agentliyinin (MEDİA) icraçı direktoru Əhməd İsmayılovla görüşüblər.***

Görüşdə əsas məsələ media üçün gənc, peşəkar mütəxəssislər hazırlamaq olub. Həmçinin, BDU-nun Jurnalistika fakültəsinin tələbələrinin peşəkarlığını artırmaq üçün planlaşdırılan ortaq layihələrdən də bəhs edilib.

Görüşdə media sahəsində yüksək ixtisaslı kadr hazırlığının əhəmiyyəti vurğulanıb. BDU ilə birgə reallaşdırılması nəzərdə tutulan layihələrin tələbələr üçün faydalı olacağı qeyd edilib.



# BDU Cənubi Koreyanın Keimyung Universiteti ilə əməkdaşlıq müqaviləsi imzalayıb

***Martın 2-də Bakı Dövlət Universiteti ilə Cənubi Koreyanın Keimyung Universiteti arasında əməkdaşlıq müqaviləsi imzalanıb.***

Əməkdaşlıq müqaviləsini BDU-nun rektoru Elçin Babayev və Cənubi Koreyanın Keimyung Universitetinin rektoru Sinn İlhi imzalayıb. Müqavilə iki universitet arasında təhsil, elm və tədqiqat sahəsində əməkdaşlığı, tələbə, akademik və inzibati heyətin qarşılıqlı mübadiləsini, birgə layihələrin və tədbirlərin həyata keçirilməsini nəzərdə tutur.

Əsası 1899-cu ildə qoyulmuş Keimyung Universiteti Koreyanın və dünyanın ən qədim universitetlərindən biridir. 23 000-dən çox tələbənin təhsil aldığı universitetdə 22 fakültədə 57 ixtisas üzrə kadr hazırlığı həyata keçirilir.



# Professor Əziz Əliyevə həsr olunmuş elmi seminar keçirilib

***Martın 1-də Kitabxanaçılıq-informasiya fakültəsinin və Respublika Dövlət Elmi Tibb Kitabxanasının birgə təşkilatçılığı ilə professor Əziz Əliyevin anadan olmasının 125 illiyinə həsr olunmuş elmi seminar keçirilib.***

Elmi seminarı giriş sözü ilə açan BDU-nun Elmi fəaliyyətin təşkili və innovasiyalar Mərkəzinin direktoru Mais Süleymanov Əziz Əliyevin görkəmli dövlət xadimi, ölkəmizdə səhiyyə işinin təşkilatçısı, eyni zamanda yüksək erudisiyaya malik alim kimi fəaliyyətindən bəhs edib. Professor Əziz Əliyevin irsinin öyrənilməsinin və gənc nəslə təbliğinin xüsusi önəm kəsb etdiyini vurğulayan Mais Süleymanov elmi seminarda müzakirə edilən mövzuların aktuallığını diqqətə çatdıraraq tədbirin işinə uğurlar arzulayıb.

Elmi seminarda BDU-nun Biblioqrafiyaşünaslıq kafedrasının müdiri Nadir İsmayılov "Əziz Əliyev irsinə dair sənəd axınının tədqiqi", Respublika Dövlət Elmi Tibb Kitabxanasının direktoru Yeganə Pirəliyeva "Əziz Əliyev Azərbaycanda tibb elmi və təhsilinin informasiya fəaliyyətinin təşkilatçısı kimi" mövzularında məruzə ediblər. Nadir İsmayılov Ulu Öndər Heydər Əliyevin və Prezident İlham Əliyevin Əziz Əliyevin irsinə, şəxsiyyətinə böyük dəyər verdiyini vurğulayıb, alimin yubileylərinin dövlət səviyyəsində qeyd edildiyini diqqətə çatdırıb. Məruzədə Əziz Əliyev irsi haqqında ölkəmizdə və xaricdə sənəd-informasiya axınının təşəkkülü, inkişafı və



müasir vəziyyəti kompleks təhlil olunub, mövzunun informasiya təminatının təkmilləşdirilməsi ilə bağlı innovativ təkliflər irəli sürülüb. Əziz Əliyev irsinə dair sənəd axınının tədqiqində Milli Kitabxana tərəfindən "Azərbaycanın görkəmli şəxsiyyətləri" seriyası ilə nəşr edilmiş "Əziz Əliyev" biblioqrafik göstəricisinin xüsusi əhəmiyyət daşıdığını bildirən məruzəçi biblioqrafiyada alimin əsərləri, həyat və yaradıcılığına dair mühüm faktların əksini tapdığını qeyd edib. Məruzədə Əziz Əliyev irsinə dair çap edilmiş əsərlər ədəbiyyat növlərinə və müəlliflərin əlifba göstəricisinə görə təsnifləndirilib, bir sıra müqayisəli təhlillər aparılıb.

Respublika Dövlət Elmi Tibb Kitabxanasının direktoru Yeganə Pirəliyeva məruzəsində Əziz Əliyevin tibb elmi və təhsilinin informasiya təminatındakı fəaliyyətindən bəhs edib, alimin Azərbaycan Tibb Universiteti nəzdində hazırda 1 milyon kitab fonduna malik Tibb Kitabxanasının əsasını qoyduğunu bildirib. Qeyd edib ki, Əziz Əliyev Azərbaycan Tibb Universitetində xüsusi Kitabxana Komissiyası yaradıb, tibbi kitabxananın fondunun zənginləşməsinə, digər respublikalarla kitab mübadiləsinin aparılmasına mühüm töhfələr verib. Yeganə Pirəliyeva Əziz Əliyevin təşəbbüsü ilə ölkədə elmi-tibbi ədəbiyyatın, eləcə də bu sahə üzrə dövri nəşrlərin çapını həyata keçirən "Tibb nəşriyyatı"nın, "Praktiki və nəzəri tibb jurnalı"nın, hazırda "Təbib" adı ilə fəaliyyətini davam etdirən "Tibb kadrları uğrunda" qəzetinin yaradıldığını diqqətə çatdırıb. Məruzəçi alimin bu istiqamətdəki fəaliyyətinin ölkəmizdə tibb elmi və təhsilinin informasiya təminatının formalaşmasında xüsusi rolunu vurğulayıb.

Məruzələr auditoriya tərəfindən böyük maraqla dinlənilib, mövzularla bağlı müzakirələr aparılıb.

# Böyük alim, pedaqoq və elmimizin layiqli təmsilçisi

***Keçən əsrin 70 - ci illərində Ulu Öndər - Heydər Əliyevin apardığı siyasət nəticəsində elm və təhsilin səviyyəsini yüksəltmək, yeni yaranan elm sahələri üzrə milli kadrların hazırlanmasını həyata keçirmək üçün təhsildə mühüm nailiyyətlər qazanmış II - III kurs Universitet tələbələri SSRİ-nin yüksək səviyyəli ali məktəblərinə, o cümlədən Moskva Dövlət Universitetinə göndərilirdilər.*** Moskva Dövlət Universitetində oxumaq hər bir gəncin arzusu idi. Orada təhsil alan tələbələr elmin hər bir sahəsində böyük nailiyyətlər qazana bilirdilər. Belə tələbələrdən biri də bu il 70 yaşı tamam olan Bakı Dövlət Universitetinin Biofizika və biokimya kafedrasının müdiri, AMEA Radiasiya Problemləri İnstitutunun Radioekologiya laboratoriyasının aparıcı elmi işçisi, fizika-riyaziyyat elmləri doktoru, professor 1952-ci ildə anadan olmuş Rövşən Xəlilovdur. O 1969-cu ildə Azərbaycan Dövlət Universitetinin fizika fakültəsinə qəbul olmuş, 1972-ci ildən təhsilini Moskva Dövlət Universitetinin fizika fakültəsində davam etdirmiş və 1976-cı ildə bu Universiteti bitirmişdir.

Təhsildə qazandığı müvəffəqiyyətləri və yeni elm sahəsi olan biofizikaya marağını nəzərə alaraq onu elə həmin il məşhur Sovet alimi L.A.Blümenfeldin rəhbərlik etdiyi Biofizika kafedrasında əyani aspiranturada saxlayırlar. Hələ tələbəlik illərindən elmi tədqiqatlara başlayan R.Xəlilov bitkilərdə fotosintez prosesinin mexanizminin biofiziki əsaslarını öyrənərkən maraqlı elmi nəticələr almışdı. O, ilk dəfə Elektron Paramaqnit Rezonans (EPR) üsulu ilə fotosintez prosesinin əsas strukturu Fotosistem



2-nin reaksiya mərkəzindən (P680) EPR siqnalı almışdı. Onun bu elmi nəticələri yüksək maraq doğurduğundan Biofizika və digər nüfuzlu jurnallarda nəşr olunmuşdu. Tələbəlik illərindən başladığı elmi tədqiqatlarını aspirantura dövründə müvəffəqiyyətlə davam etdirən Rövşən Xəlilov 1979-cu ildə biofizika ixtisası üzrə Moskva Dövlət Universitetində namizədlik dissertasiyası müdafiə edərək fizika-riyaziyyat elmləri namizədi alimlik dərəcəsi almışdır və elə həmin il Azərbaycan Dövlət Universitetində (indiki Bakı Dövlət Universiteti) yenicə yaradılmış Biofizika və molekulyar biologiya kafedrasına təyinat almışdır.

1979-cu ildən bu kafedrada əmək fəaliyyətinə başlayan R.Xəlilov assistent (1979-1984), dosent (1984-1994), professor (1994-2019), 2019-cu ildən indiyə qədər kafedra müdiri kimi fəaliyyət göstərir. R.İ. Xəlilov 1992-ci ilin martında Moskvada ixtisaslaşdırılmış müdafiə şurasında "Ultrabənövşəyi şüaların ali bitki hüceyrə membranlarına təsir mexanizmi" mövzusunda ekologiya və biofizika ixtisasları üzrə doktorluq dissertasiyası müdafiə edərək Rusiya Ali Attestasiya Komitəsi tərəfindən 1992-ci ilin may ayında fizika-riyaziyyat elmləri doktoru alimlik dərəcəsinə layiq görülmüşdür. O 1994-cü ildə professor elmi adını almışdır.

Hal-hazırda R.Xəlilov biofizika, radioekologiya, nanobiotexnologiya və ekoloji biofizika sahəsində maraqlı elmi-tədqiqat işləri aparır. O (əməkdaşı Aygün Nəsibova ilə birlikdə), müxtəlif fiziki-kimyəvi metodların köməyi ilə bəzi amillərin (ultrabənövşəyi və qamma radiasiya) canlı sistemlərə təsirinin molekulyar mexanizmini öyrənir. Daim elmi inkişafda olan alim Moskva Dövlət Universitetinin və Saarland Universitetinin (Almaniya) alimləri ilə birlikdə nanobiotexnologiya sahəsində müasir fiziki-kimyəvi üsullarla (EPR spektroskopiya, Elektron Keçirici Mikroskopları, Messbauer spektroskopiyası, Polimeraza Zəncir Reaksiyası, fluoressensiya və s.) canlı sistemlər üzərində elmi tədqiqatlar aparır və öz elmi fəaliyyəti və mühüm elmi nəticələri barədə bir çox beynəlxalq konfrans və simpoziumlarda çıxışlar edir.

R.Xəlilov 400-dən artıq elmi əsərin, 3 monoqrafiyanın, ali məktəblər üçün 3 dərsliyin müəllifidir.

Onun rəhbərliyi altında 10-a yaxın aspirant namizədlik dissertasiyalarını müdafiə etmişlər, o, həmçinin, 3 elmər doktoru hazırlamışdır. Hazırda onlarla magistr və doktorant professorun rəhbərliyi altında elmi-tədqiqat işləri aparırlar. R.Xəlilov tələbələrə müasir fiziki-kimyəvi biologiyanın əsaslarını öyrədir və "Biofizika", "Nanobiotexnologiya", "Membranologiya", "Tibbi-bioloji nanotexnologiya", "Ekoloji biofizika" və s. fənnlər üzrə mühazirələr oxuyur.

İlk Azərbaycan biofiziklərindən biri, beynəlxalq elm aləmində özünəməxsus yeri olan məşhur alim 2021-ci ilin 27 mart tarixində Bakı Dövlət Universitetində Azərbaycan Respublikasında "Elm günü"nə həsr olunmuş, təbiət və texnika elmləri üzrə "İlin alimi - 2020" müsabiqəsinin ən yüksək 5380 bal ilə qalibi olmuşdur. Onun "İlin alimi" kimi mötəbər bir zirvəyə yüksəlməsinin əsas səbəbi yüksək təfəkkürü, elmə olan vurğunluğu, işgüzarlığı, təşkilatçılığı, yerli və beynəlxalq nüfuzlu alimlərlə elmi əməkdaşlığı və biofizika elmində öz dəsti-xəttı olmasıdır.

Azərbaycanın elmi ictimaiyyəti arasında yüksək hörmətə malik olan Rövşən Xəlilov 2019-cu ildə Ukraynanın Droqobic Universitetinin fəxri doktoru seçilmişdir. 2017-ci ildən Beynəlxalq sistemdə çox tanınan "Birgə Ukrayna - Azərbaycan Beynəlxalq Nanobiotexnologiya və Funksional Nanosistemlər Tədqiqat və Təhsil Mərkəzi" - nin təsisçisi və rəhbəridir

Elmi-pedoqoji fəaliyyəti dövründə R.Xəlilov Çin Xalq Respublikasının Şanxay şəhərində, Türkiyənin Ankara Universitetində mühazirələr oxumuş, Alman Akademik Mübadilə Xidmətinin (DAAD) keçirdiyi müsabiqənin qalibi kimi Almaniyanın Humbolt Universitetində, Saarland Universitetində elmi-tədqiqat işləri aparmışdır.

O ABŞ-da fəaliyyət göstərən Beynəlxalq Elektron Paramaqnit Rezonans Cəmiyyətinin üzvü; Azərbaycan Biofizika Cəmiyyətinin Vitse-Prezidenti; Beynəlxalq Elm, Təhsil, Mədəniyyət və İncəsənət Fondunun (SECA) Prezidentidir. Bundan başqa prof. R.Xəlilov bir çox elmi jurnalların redaksiya heyətinin üzvüdür

2016-2017-ci illərdə isə Universitetdaxili 50+50 qrantlar proqramı üzrə "Ekoloji çirklənməyə məruz qalmış ərazilərin tədqiqində yeni bioindikasiya sistemlərinin işlənib hazırlanması" mövzusunda fərdi qrant layihəsinin qalibi, 2020-2021-ci illərdə Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun maliyyələşdirdiyi "Stress amillərin təsiri nəticəsində bioloji sistemlərdə maqnit xassələrinin yaranması mexanizmi" adlı layihənın iştirakçısı olmuşdur.

Onu da qeyd etmək lazımdır ki, Rövşən müəllim yüksək səviyyəli ailə başçısıdır. O övladlarına örnək olan ata və qayğıkeş babadır.

Professor Rövşən Xəlilovu 70 illik yubileyi münasibəti ilə təbrik edir, böyük alimə elmi-pedaqoji fəaliyyətində uğurlar diləyir, gələcək planlarını müvəffəqiyyətlə həyata keçirməyi, yeni-yeni nailiyyətlər qazanmağı və cansağlığı arzulayırıq.

*Elşad Qurbanov,*
*Botanika və bitki fiziologiyası kafedrasının müdiri, professor*

*Aygün Nəsibova,*
*AMEA Radiasiya Problemləri İnstitutunun aparıcı elmi işçisi, dosent*

# ADA Universitetinin təşəbbüsü ilə yenidən nəşr olunmuş "Vətən dili" dərsliyinin müzakirəsi keçirilib

***Martın 17-də Bakı Dövlət Universitetində ADA Universitetinin təşəbbüsü ilə nəşr olunmuş "Vətən dili" dərsliyinin latın qrafikası ilə yeni nəşrinin müzakirəsi keçirilib.***

Tədbirdə çıxış edən BDU-nun rektoru Elçin Babayev bildirib ki, ADA Universitetinin rektoru professor Hafiz Paşayevin təşəbbüsü və rəhbərliyi ilə ərsəyə gətirilən - 1918-1920-ci illərdə çap edilmiş "Azərbaycan" qəzeti və XIX əsrin axırlarında işıq üzü görmüş iki hissədən ibarət "Vətən dili" dərsliyinin latın qrafikasında nəşrləri, Qazax Müəllimlər Seminariyasının tarixi binasının bərpası, "Bir müəllimin manifesti" kimi dəyərli layihələr milli-mənəvi dəyərlərimizin qorunmasına və təbliğinə xidmət edir.

Rektor vurğulayıb ki, təxminən 40 il azərbaycanlı uşaqların və müəllimlərin əvəzedilməz dərsliyi olan, I hissəsi 1882, II hissəsi 1888-ci illərdə işıq üzü görmüş "Vətən dili" dərsliyinin bütövlüklə, hər iki cildi bir kitaba




daxil edilməklə yenidən nəşr olunması çox önəmli, tarixi hadisədir. Milli nəşrlər sırasında xüsusi yer tutmuş, dəyərli ziyalılar Aleksey Çernyayevski və Səfərəli Vəlibəyovun tərtib etdiyi "Vətən dili" dərsliyi vaxtilə Cənubi Qafqazda azərbaycanlı uşaqlar və müəllimlər üçün mükəmməl dərs vəsaiti kimi geniş istifadə olunub, həm Qori Seminariyasının, həm də onun varisi olan Qazax Müəllimlər Seminariyasının rəsmi dərsliyi kimi mühüm tədris vəsaitinə çevrilib. Xoşməramlı təşəbbüsə və savab əmələ görə bu gün təkcə ölkəmizdə deyil, həm də regionda ən qabaqcıl ali təhsil müəssisəsi kimi tanınan, dünyanın nüfuzlu universitetləri sırasında layiqli yer



alan ADA Universitetinin rektoru, görkəmli ictimai xadim, diplomat, alim, nüfuzlu elm və təhsil təşkilatçısı, dərin zəkalı və milli ruhlu ziyalımız Hafiz Paşayevə və onun rəhbərliyi altında bu dəyərli nəşrləri ərsəyə gətirən yaradıcı kollektivə təşəkkür edən rektor qeyd edib: "140 il əvvəl işıq üzü görən bu kitab sadəcə həmin dövrlə tanışlıq deyil. Belə kitablar bütün dövrlərdə ən yaxşı tədris vəsaiti hesab olunur, təkcə bilik vermir, həm də vətəndaş yetişdirir. "Vətən dili"ni yalnız kitabxanalara verməklə kifayətlənməməliyik. Onu xarici ölkələrdəki diaspor təşkilatlarımıza da paylamaq lazımdır. Kitabın dərs vəsaiti kimi BDU-da müvafiq ixtisaslarda tədris prosesində istifadə olunması barədə düşünürük".

ADA Universitetinin prorektoru Fariz İsmayılzadə BDU ilə ADA Universiteti arasında çoxşaxəli əməkdaşlıq olduğunu və qarşıdakı illərdə bu əlaqələrin daha da genişlənəcəyini qeyd edib. Fariz İsmayılzadə vurğulayıb ki, son illər BDU ilə ADA Universiteti "BLACKBOARD" elektron tədris sisteminin tətbiqi, Qazax Müəllimlər Seminariyası üçün təlimçilərin hazırlanması istiqamətində uğurlu əməkdaşlıq edib. "Vətən dili" kitabını transliterasiya edən, qeyd və şərhlərin müəllifi də BDU-nun Ərəb filologiyası kafedrasının müdiri Vüqar Qaradağlıdır. ADA Universitetinin həyata keçirdiyi layihələrin böyük alim və vətəndaş olan Hafiz Paşayevin təşəbbüsü ilə gerçəkləşdiyini vurğulayan Fariz İsmayılzadə bildirib ki, Qazax Müəllimlər Seminariyasının regional əhəmiyyəti böyükdür. Artıq Gürcüstandan olan azərbaycanlılar bu Seminariyada oxumaq üçün müraciət edirlər.

Daha sonra BDU-nun Rus ədəbiyyatı tarixi kafedrasının müdiri, professor Ədibə Paşayeva, BDU-nun Ümumi dilçilik kafedrasının müdiri, AMEA-nın həqiqi üzvü Nizami Cəfərov, Filologiya fakültəsinin dekanı Elçin Məmmədov, Şərqşünaslıq fakültəsinin dekanı Aydan Xəndan, AMEA-nın müxbir üzvü, professor Təhsin Mütəllimov, BDU-nun Ərəb filologiyası kafedrasının müdiri Vüqar Qaradağlı, BDU-nun Azərbaycan ədəbiyyatı tarixi kafedrasının dosenti Məti Osmanoğlu (Bayramlı) kitabla bağlı fikirlərini bildirib, "Vətən dili"nin təcrübəsindən milli dərslik siyasətində istifadə olunmasını təklif ediblər.

# Robert Stivensin kitabının təqdimat mərasimi

***Martın 17-də tanınmış kanadalı geoloq Robert Stivensin "AzerGold" Qapalı Səhmdar Cəmiyyətinin (QSC) təşəbbüsü və dəstəyi ilə tərcümə və nəşr edilən "Faydalı qazıntıların kəşfiyyatı və dağ-mədən sənayesinin əsasları" kitabının təqdimat mərasimi keçirilib.***

Mərasimdə "AzerGold" QSC-nin İdarə Heyətinin üzvü – sədrin müavini Xəyyam Fərzəliyev, Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında Milli Geoloji Kəşfiyyat Xidmətinin rəisi Əli Əliyev, Dövlət Mineral Xammal Ehtiyatlarından İstifadə Agentliyi İdarə Heyətinin sədrinin müavini Azər Şükürov, eləcə də geologiya və dağ-mədən sahələrində müvafiq dövlət qurumlarının, elm və təhsil müəssisələrinin rəhbər şəxsləri, qocaman geoloqlar, akademik heyət və tələbələr iştirak ediblər.

Tədbiri giriş sözü ilə açan Xəyyam Fərzəliyev kitabın tərcümə və çap edilməsində əsas məqsədin faydalı qazıntıların öyrənilməsi, tədqiqi, səmərəli idarə olunması sahəsində dünya elmində baş verən yenilikləri, əldə olunan müasir təcrübəni gənc mütəxəssislərə ana dilində aşılamaq, bu sahədə dövlətin, elm və təhsil müəssisələrinin həyata keçirdiyi ardıcıl fəaliyyətə töhfə vermək olduğunu diqqətə çatdırıb.

Cəmiyyətin dağ-mədən sahəsi üzrə ali və peşə təhsilinin təşviqi, elmi potensialın dəstəklənməsi istiqamətində həyata keçirdiyi tədbirlərdən bəhs edən Xəyyam Fərzəliyev şirkətin bundan sonra da beynəlxalq təcrübə və qabaqcıl istehsal texnologiyalarının




transferi ilə yanaşı, elmtutumlu və innovativ yanaşmaların təbliğ edilməsi istiqamətində fəaliyyətini davam etdirəcəyini qeyd edib. İdarə Heyəti sədrinin müavini sözügedən elmi-publisistik nəşrin geoloq və mədənçilərin masaüstü kitabına çevriləcəyinə, mineral xammal ehtiyatlarından səmərəli istifadənin təşkilinə əlavə töhfə verəcəyinə inandığını bildirib.

Milli Geoloji Kəşfiyyat Xidmətinin rəisi Əli Əliyev kitabın praktik əhəmiyyəti barədə danışaraq, nəşrin təkcə geoloqlar deyil, menecerlər üçün də faydalı vəsait olacağını diqqətə çatdırıb. Əli Əliyev sözügedən kitabın Azərbaycan dilində nəşrinin ölkəmizdə dağ-mədən sənayesinin inkişafında yeni bir mərhələnin yarandığı dövrə təsadüf etməsi ilə də əlamətdar olduğunu vurğulayıb.

Dövlət Mineral Xammal Ehtiyatlarından İstifadə Agentliyinin İdarə Heyətinin sədrinin müavini, kitabın rəyçisi Azər Şükürov çıxışında bu cür maarifləndirici kitabların dağ-mədən sənayesinin inki-



şafı üçün böyük əhəmiyyət kəsb etdiyini vurğulayıb. Azər Şükürov yeni nəşrin dərs vəsaiti kimi gənc ekspertlərin yetişdirilməsində istifadə ediləcəyini qeyd edib.

Geologiya və dağ-mədən sənayesi üzrə müvafiq ixtisasların tədris olunduğu Bakı Dövlət Universitetinin rektoru Elçin Babayev bildirib ki, bu cür layihələrin reallaşdırılması "AzerGold"un rəqabətli insan kapitalının formalaşdırılmasında və innovativ inkişafında bilavasitə iştirak etdiyini sübut edir. Rektor BDU-nun "AzerGold"la əlaqələrinin hər il daha da genişləndiyini vurğulayıb: "Fəaliyyət planımıza "Universitetdən karyeraya uğurlu keçid" mövzusunda seminarların təşkili, birgə tədqiqatların aparılması, uyğun ixtisaslar üzrə təhsil alan tələbələrinin istehsalat təcrübəsi, "AzerGold"un əməkdaşları tərəfindən BDU-nun tələbələri üçün müvafiq proqramlar üzrə master-klassların keçirilməsi və s. daxildir. Bir neçə gün bundan qabaq bunun üçün xüsusi təqaüdlər də ayrılıb. Kitabın təqdimatını, müzakirəsini və ya sərgisini BDU-da da, digər universitetlərdə də təşkil etmək olar".

Elçin Babayev bildirib ki, "Yer elmləri və ətraf mühit" istiqaməti BDU-nun 5 əsas elmi prioritetindən biridir: "Bu mənada kitab Yer elmləri istiqamətində təhsil alan tələbə və elmi araşdırma aparan tədqiqatçılarımız üçün geologiya elminin ən son metod və üsullarını özündə əks etdirən qiymətli bir mənbə rolunu oynayacaq. "Faydalı qazıntıların kəşfiyyatı və dağ-mədən sənayesinin əsasları" kitabının ən üstün cəhətlərindən biri onun praktiki biliklərə və vərdişlərə əsaslanaraq tərtib olunmasıdır. Kitabda dağ-mədən sənayesindəki proseslərin ardıcıllığı, faydalı qazıntıların kəşfiyyat üsulları, Yer təkinin öyrənilmə prinsipləri, faydalı qazıntı ehtiyatlarının hesablanması və s. kimi digər geoloji-iqtisadi məsələlər təsvir olunub. Kitabda həmçinin mədənlərdə istismar və filiz saflaşdırma prosesləri zamanı yarana bilən zərərli maddələrin işçilərə, yaxın yaşayış məntəqələri sakinlərinə və ətraf mühitə təsiri ilə bağlı təlimatlar da əks olunub. Əminəm ki, bu kitab ölkədə yeni bərk faydalı qazıntı yataqlarının axtarışına, geoloji-kəşfiyyat işlərinə, proqnoz resurslarının qiymətləndirilməsi prosesinə, nəcib və əlvan metal ehtiyatlarının artırılmasına, yataqların istismar effektivliyinin düzgün qiymətləndirilməsinə, dağ-mədən sənayesinin gələcək inkişafına əhəmiyyətli töhfə verəcək".

Azərbaycan Texniki Universiteti, Bakı Ali Neft Məktəbi və Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin rektorları, o cümlədən kitabın redaksiya heyəti nəşrin əhəmiyyəti barədə çıxış ediblər.

Qeyd edək ki, "Faydalı qazıntıların kəşfiyyatı və dağ-mədən sənayesinin əsasları" kitabında dağ-mədən sənayesi haqqında ümumi təsəvvürlər, geologiya, faydalı qazıntı yataqları, texniki araşdırmalar, həmçinin mədənlərin idarə edilməsində maliyyə modelləri, eləcə də ekoloji tədbirlər barədə geniş və praktiki nümunələrlə zəngin məlumatlar izahlı şəkildə təqdim olunur. Kitab "AzerGold" QSC tərəfindən ölkəmizin elmi kitabxanalarına, həmçinin geologiya və dağ-mədən sahələri üzrə ixtisasların tədrisini həyata keçirən universitetlərə hədiyyə edilib.

# 27 Mart - Azərbaycanda

## BDU-da "Elm günləri"nə start verilib

***2018-ci il 9 aprel tarixində Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev cəmiyyətin inkişafında elmin əhəmiyyətini nəzərə alaraq, 27 mart - Azərbaycan Respublikasında "Elm günü"nün təsis edilməsi haqqında sərəncam imzalayıb.*** Hər il bu əlamətdar tarix ilə əlaqədar ölkəmizin ali təhsil müəssisələrində, elmi-tədqiqat institutlarında müasir elmin aktual problemlərinə həsr olunmuş silsilə tədbirlər - elmi konfranslar, seminarlar, simpoziumlar, mühazirələr, dəyirmi masalar keçirilir. Elmi fəaliyyət üzrə müsabiqələr təşkil olunur. Bu ənənə ölkə alimlərini bir araya gətirməklə əldə olunan elmi nəticələrin müzakirəsinə, fundamental və tətbiqi xarakterli birgə tədqiqatların aparılmasına, əldə edilmiş elmi nailiyyətlərin tanıdılmasına imkan yaradır.

Azərbaycanda elm və təhsil sahəsində informasiya-kommunikasiya texnologiyalarının tətbiqi, dünya elminin tələblərinə cavab verən tədqiqatların aparılması, elmi-texniki potensialın inkişafı, eləcə də yüksəkixtisaslı kadrların hazırlanması dövlət siyasətinin prioritet istiqamətlərindəndir. Ölkəmizin davamlı inkişafı, iqtisadi, siyasi və hərbi qüdrəti təhsilin keyfiyyəti və səviyyəsi, həmçinin ölkənin elmi potensialı və bu sahələrdəki uğurları ilə bilavasitə bağlıdır.

Öz müstəqilliyini bərpa etdikdən sonra ölkəmizin davamlı inkişaf strategiyası, müasir dünyada baş verən qlobal siyasi, iqtisadi, sosial və ekoloji problemlər Azərbaycanın elmi əsaslar üzərində inkişafını zərurətə çevirib. Müstəqilliyimizin bərpasından keçən müddət ərzində dövlətin diqqət və qayğısı sayəsində ölkəmizdə elm və təhsil sahələri sürətlə inkişaf edib, bu istiqamətdə nailiyyətlər qazanılıb. Elmin inkişafı istiqamətində ardıcıl olaraq islahatlar həyata keçirilir. Elm və təhsilin inkişafı, elmi və elmi-pedaqoji kadr hazırlığı bütövlükdə ölkəmizin hərtərəfli inkişafının hərəkətverici qüvvəsinə çevrilib. Elm və təhsilin inkişafına dövlət səviyyəsində göstərilən qayğı birbaşa olaraq dövlətçiliyimizin və müstəqilliyimizin möhkəmləndirilməsinə, xalqımızın tərəqqisinə və rifah halının yüksəldilməsinə xidmət edən məqsədyönlü siyasətin tərkib hissəsidir. Elm, təhsil və sənayenin məharətlə əlaqələndirilməsi, müasir texnologiyalar və innovasiyaların tətbiqi yolu ilə inkişaf etdirilməsi hazırda ən aktual və prioritet məsələdir. Bu gün Azərbaycanda məhz bu istiqamətləri əhatə edən dövlət siyasəti aparılır, iqtisadi potensialı intellekt kapitalına çevirmək sahəsində mühüm və davamlı işlər görülür.

Öz strategiyasında təhsil və elmi tədqiqatların sıx inteqrasiyasını, o cümlədən tələbələrin tədris praktikasının birbaşa olaraq tədqiqatla əlaqələndirilməsini əsas götürən Bakı Dövlət Universitetində hər il "Elm günü"nə həsr olunmuş Tədbirlər planı hazırlanaraq təsdiq edilir. Artıq iki ildir ki, 27 Mart - Azərbaycan Respublikasında "Elm günü"nə həsr olunmuş BDU əməkdaşları arasında "İlin alimi" nominasiyası üzrə müsabiqə elan olunur. "İlin alimi" müsabiqəsinin məqsədi BDU-nun il ərzində aktiv elmi fəaliyyət göstərərək yüksək elmi nəticələrə nail olmuş, nüfuzlu jurnallarda və nəşrlərdə dərc olunmuş elmi məqalələri və digər elmi əsərləri olan, elmi işlərinə istinad olunan, həmçinin yüksək elmi-təşkilati fəaliyyətinin ilə fərqlənmiş əməkdaşlarının mükafatlandırılmasıdır.

Təhsil, elmi-tədqiqat və innovasiya fəaliyyəti kimi bacarıqlara malik istedadlı tələbələri seçmək, onlarda innovativ sahibkarlıq fəaliyyətini həyata keçirə bilmək bacarıqlarını təşviq və inkişaf etdirmək məqsədilə BDU-nun tələbələri arasında "Elm günü"nə həsr olunmuş "Ən yaxşı layihə" nominasiyası üzrə müsabiqə elan edilib. Bu il həmçinin BDU-nun Tələbə Elmi-Texniki Yaradıcılıq Mərkəzinin təşkilatçılığı ilə 27 Mart - Azərbaycan Respublikasında "Elm günü"nə həsr olunmuş, BDU-nun gənc tədqiqatçıları və tələbələri tərəfindən hazırlanmış müxtəlif innovasiya və texnologiya layihələrinin sərgiləndiyi "I Milli Texnologiya Sərgisi" də keçiriləcək.

BDU-nun əməkdaş, doktorant və tələbələrinin uğurlu elmi fəaliyyəti öz nəticəsini verməkdə davam edir. "Clarivate Analytics" Beynəlxalq İnformasiya Agentliyinin rəsmi məlumatına əsasən, 2022-ci ilin ilk 3 ayı ərzində BDU-nun Hirş indeksi artaraq 50 olub (Hirş indeksi alimlərin, elmi təşkilatın fəaliyyətinin elmi əsərlər və həmin əsərlərə istinada görə kəmiyyət göstəricisidir). Hər bir əsərə istinadların orta sayı isə 5.59-a qədər yüksəlib. Onu da qeyd edək ki, 2018-cı ilin sonunda BDU-nun Hirş indeksi 35-ə bərabər olub.

Agentliyin rəsmi məlumatına əsasən, BDU-nun əməkdaşları, doktorantları və tələbələri tərəfindən "Web of Science" bazasına daxil olan dərgilərdə artıq 3321 elmi əsər nəşr edilib. Bu əsərlərə 18529 dəfə istinad edilib. Təkcə 2021-ci ildə "Web of Science" bazasına daxil olan dərgilərdə BDU tərəfindən 247 əsər (2021-ci il üzrə yekun nəticələr tam deyil, 2022-ci ilin ilk yarımilliyində tamamlanacaq) nəşr edilib və nəşr edilən əsərlərə 4517 dəfə istinad olunub ki, bu da 2018-ci ildə edilən istinadların sayından 2.5 dəfə çoxdur.

Onu da qeyd edək ki, bu göstəricilərlə BDU Azərbaycan universitetləri arasında yenə liderdir.

## Prezident mükafatçısı BDU-da "Dərin öyrənmə metodları" adlı ustad dərsi keçib

***Bakı Dövlət Universitetində 27 Mart - Azərbaycan Respublikasında "Elm günü"nə həsr olunmuş tədbirlər çərçivəsində silsilə elmi seminarlar başlayıb.***

2022-ci ildə elm sahəsində Prezident mükafatçısı olan Əliqənbər Xəlillinin martın 11-də Tətbiqi riyaziyyat və kibernetika fakültəsində "Dərin öyrənmə metodları" adlı ustad dərsi keçib. Ustad dərsində Tətbiqi riyaziyyat və kibernetika fakültəsinin tələbələri iştirak edib.





Əliqənbər Xəlilli mühazirəsində "Turing maşını və hesablamanın riyazi modelləşdirilməsi", "Turing paradoksu", "Riyaziyyat elmi ilə kompüter elminin əlaqələndirilməsi", "Abstraksiya nədir?", "Alqoritmlər və verilənlər strukturu", "İnsan beyninə qarşı kompüter hesablaması", "Dərin öyrənmə metodları və bütün danışılan mövzuların məntiqi əlaqəsi" mövzuları üzrə geniş məlumat verib.

Əliqənbər Xəlilli eyni zamanda uğur qazanmaq üçün şəxsi təcrübəsini bölüşüb, peşəkar mütəxəssis olmağın sirlərindən danışıb, tələbələrə tövsiyələrini verib.

Qeyd edək ki, Əliqənbər Xəlilli 2012-ci ildə Birləşmiş Millətlər Təşkilatının və Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat təşkilatçılığı ilə keçirilmiş IGF-2012 beynəlxalq forumunda İT həllərin verilməsində iştirak edib. 2013-2015-ci illər ərzində bir sıra mühüm dövlət və özəl müəssisələrin IT layihələrini uğurla həyata keçirib. 2015-ci ildə Azərbaycanlı alim Lütfi Zadənin "2-ci tip qeyri-səlis məntiq nəzəriyyəsi" üzrə araşdırmalarını ictimaiyyətə təqdim edib.

O, 2016-cı ildən dünyaca məşhur kompüter elmləri bloqlarında faydalı kontentin yaradılmasına və inkişafına dəstək verir. 2017-ci ildən Massaçusets Texnologiya İnstitutu, Stanford, Berkeley universitetlərinin süni intellekt sahəsi üzrə proqramlarını uğurla bitirərək, bir çox sertifikatlara layiq görülüb. 2019-cu ildə isə Gürcüstanda keçirilən "Data Science 2019" konfransında Azərbaycanı təmsil edib. 2019-2021-ci illərdə Amerikada keçirilən "Compiler Writing", "Raft Implementation", "Structure and Interpretation of Computer Programs" təlimlərində uğurla iştirak edib. Bu təlimlərin nəticəsində qazanılmış bilikləri tətbiq edərək, telekommunikasiya protokollarından biri olan "Diameter" protokolunu "Python" proqramlaşdırma dilində yazıb.

Əliqənbər Xəlilli bu təlimlərdən qazandığı biliklər əsasında "Azercell" akademiyasında süni zəka sahəsi üzrə təlimçi olub. 2017-ci ildə İrlandiyanın Dublin şəhərində keçirilmiş telekommunikasiya təlimində aktiv iştirak edib, 2018-ci ildən etibarən şəxsi bloqunda süni zəka, alqoritmlər, verilənlər strukturu üzrə elmi-praktiki həllərin analizini cəmiyyətə çatdırır. 2019-cu ildən etibarən dünya üzrə məşhur süni intellekt kitabxanası olan "Tensorflow"nun açıq qaynaq kodlarına öz töhfəsini verməkdədir.

Əliqənbər Xəlillinin Vətən müharibəsi dövründə rabitə və telekommunikasiya xidmətlərinin keyfiyyətli təminatında xüsusi xidmətləri olub.

O, hazırda ABŞ-ın "TopTal" şirkəti ilə əməkdaşlıq edir. 2022-ci il 2 fevral tarixində Prezident İlham Əliyevin sərəncamı ilə Gənclər üçün Prezident mükafatına layiq görülüb.

## Xurşidbanu Natəvana həsr olunmuş elmi seminar

***Martın 29-da Kitabxanaçılıq-informasiya fakültəsində professor-müəllim heyətinin, doktorant və magistrantların iştirakı ilə "Elm günü" ilə bağlı silsilə tədbirlər çərçivəsində "Xurşidbanu Natəvanın əsərlərinin nəşr tarixi" mövzusunda elmi seminar keçirilib.***

Elmi seminarda Kitabxanaçılıq-informasiya fakültəsinin tələbəsi Gülnigar Fərəcova mövzu ilə bağlı məruzə edib.

Gənc tədqiqatçı əvvəlcə "Xurşidbanu Natəvanın 190 illiyinin qeyd edilməsi haqqında" Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 14 mart 2022-ci il tarixli sərəncamını diqqətə çatdırıb. Bildirib ki, sərəncamda görkəmli şəxsiyyətin irsinə yüksək dəyər verilib, onun ədəbiyyat tariximizdəki yeri və ictimai həyatdakı xidmətləri xüsusi vurğulanıb. Sənəddə qeyd olunur ki, 1960-cı ildə Bakıda şairənin heykəli, 1982-ci ildə Ulu Öndər Heydər Əliyevin iştirakı ilə Şuşada büstü ucaldılıb. Ermənistan silahlı qüvvələri 1992-ci ildə Şuşanı işğal edərkən buradakı tarixi-memarlıq və mədəniyyət abidələrini vandalcasına dağıdıb, Natəvanın büstünü də güllə ilə zədələyiblər. Şuşa şəhəri 44 günlük Vətən müharibəsində şanlı Azərbaycan Ordusu tərəfindən azad olunduqdan sonra həmin büst əzəli məkanına qayıdılıb.

Məruzəçi Xurşidbanu Natəvanın kitabları ilə yanaşı, ona həsr olunmuş kitablar, o cümlədən "Natəvan haqqında hekayələr", "Azərbaycan yazıçılarının həyatından dəqiqələr", "Natəvanın şair qohumları" və digər nəşrlər haqqında məlumat verib. Tədqiqatda haqqında bəhs edilən kitabların hər biri bədii tərtibat və redaktə xüsusiyyətləri baxımından şərh olunub, müəyyən ümumiləşdirmələr aparılıb, təkliflər irəli sürülüb. Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı ilə əsərləri dövlət varidatı elan edilən müəlliflər siyahısında Xurşidbanu Natəvanın da yer aldığı diqqətə çatdırılıb, yubiley ilində ədibin irsinə marağın daha da artacağı, əsərlərinin təkrar nəşrlərinin həyata keçiriləcəyi vurğulanıb.

Elmi seminar diskussiyalarla davam etdirilib.

# "Elm günü"dür

## "BDU – elm və təhsilin qovuşduğu məkan"

***Martın 29-da Bakı Dövlət Universitetində 27 Mart – Azərbaycan Respublikasında "Elm günü"nə həsr olunmuş "BDU – elm və təhsilin qovuşduğu məkan" mövzusunda konfrans keçirilib.***

Tədbirdən əvvəl BDU-nun himni səsləndirilib. Konfransı giriş sözü ilə açan BDU-nun rektoru Elçin Babayev bildirib ki, 2018-ci il aprelin 9-da Prezident İlham Əliyev müasir Azərbaycan təhsilinin, mədəniyyətinin, milli dövlətçilik və azərbaycançılıq məfkurəsinin formalaşmasında elmin əhəmiyyətini nəzərə alaraq 27 mart - Azərbaycan Respublikasında "Elm günü"nün təsis edilməsi haqqında sərəncam imzalayıb. Bu əlamətdar gün bütövlükdə Azərbaycan elmi ictimaiyyətinin bayramı kimi qeyd edilir. Azərbaycanda elmin yüksək sürətlə inkişafı məhz Ulu Öndər, BDU-nun məzunu olmuş Heydər Əliyevin adı ilə bağlıdır. Ümummilli Liderin 1969-cu ildə hakimiyyətə gəlməsi ilə bütün sahələrdə böyük dönüş və milli oyanış başlayıb, məhz bu dövrdə Azərbaycanda elmin mühüm strateji istiqamətləri müəyyənləşdirilib, mükəmməl təşkilati işlər həyata keçirilib, yüksəkixtisaslı kadr potensialının formalaşmasına başlanılıb. Məhz bu illərdə BDU-da da elmin və təhsilin sürətli tərəqqisi, elmi əməkdaşlıq əlaqələrinin genişlənməsi və elmi-texniki təşkilati işlərin təkmilləşməsi mümkün olub. 30 illik tarixə malik müasir Azərbaycan dövlətinin ilk illərində yaranan siyasi böhrana, iqtisadi tənəzzülə, vətəndaş müharibəsi təhlükəsinə Ulu Öndər Heydər Əliyevin Azərbaycanda siyasi hakimiyyətə ikinci dəfə qayıdışından sonra birdəfəlik son qoyulub, elmi potensialın milli sərvətimiz olaraq qorunması və inkişaf etdirilməsi yenidən dövlət siyasətinin mühüm istiqamətlərindən birinə çevrilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bütün sferalarda olduğu kimi, dövlətin elm siyasəti sahəsində də Ümummilli Lider Heydər Əliyevin ənənələrini davam etdirir. Azərbaycanda elmi islahatların aparılması, mövcud problemlərin aradan qaldırılması və elmin qarşısında duran strateji vəzifələrin icrası, həmçinin ölkədə elmin davamlı inkişafının təmin edilməsi məqsədilə Prezident İlham Əliyev tərəfindən imzalanan müvafiq dövlət proqramları, fərman və sərəncamlar, xüsusilə də dövlət başçısının 2016-cı il 9 avqust tarixli fərmanı ilə qüvvəyə minən "Elm haqqında" Azərbaycan Respublikasının qanunu ölkəmizin elm salnaməsinə müstəsna əhəmiyyətə malik tarixi sənəd kimi daxil olub.



Rektor çıxışında vurğulayıb ki, öz strategiyasında təhsil və elmi tədqiqatların sıx inteqrasiyasını, o cümlədən tələbələrin tədris praktikasının birbaşa olaraq tədqiqatla əlaqələndirilməsini əsas götürən BDU-da hər il "Elm günü"nə həsr olunmuş Tədbirlər planı hazırlanaraq təsdiq edilir. Artıq iki ildir ki, 27 Mart - Azərbaycan Respublikasında "Elm günü"nə həsr olunmuş BDU-nun əməkdaşları arasında "İlin alimi" müsabiqəsi elan olunur, bütün fakültələrdə silsilə elmi seminarlar, ustad dərsləri təşkil edilir. "Clarivate Analytics" Beynəlxalq İnformasiya Agentliyinin rəsmi məlumatına əsasən, 2022-ci ilin ilk 3 ayı ərzində BDU-nun Hirş indeksi artaraq 50 olub (Hirş indeksi alimlərin, elmi təşkilatın fəaliyyətinin elmi əsərlər və həmin əsərlərə istinada görə kəmiyyət göstəricisidir). Hər bir əsərə istinadların orta sayı isə 5.59-a qədər yüksəlib. BDU-nun əməkdaş, doktorant və tələbələri tərəfindən "Web of Science" bazasına daxil olan dərgilərdə artıq 3477 elmi əsər dərc olunub. Bu əsərlərə 19521 dəfə istinad edilib. Təkcə 2021-ci ildə "Web of Science" bazasına daxil olan dərgilərdə BDU tərəfindən 283 əsər nəşr edilib və bu əsərlərə 4810 dəfə istinad olunub ki, bu da 2018-ci illə müqayisədə 2.5 dəfə çoxdur. Bu göstəricilərlə BDU Azərbaycan universitetləri arasında yenə liderdir.

Sonra BDU-da 2021-ci il üzrə keçirilmiş elmi tədbirlər və "Texnofest-2022" festivalı ilə bağlı videoçarxlar nümayiş olunub.

Tədbirdə BDU-nun Tədqiqat, İnkişaf və İnnovasiyalar üzrə Mükəmməllik Mərkəzinin Mikrobiologiya və Virusologiya ETL-in müdiri, professor Xudaverdi Qənbərov "Mikrobların yaratdığı xəstəliklər və onlardan qorunma yolları", Kimya fakültəsinin Neft kimyası və kimya texnologiyası kafedrasının müdiri, professor İbrahim Məmmədov "Nüvə maqnit rezonansı spektroskopiyasının tətbiq imkanları", Tələbə Elmi-Texniki Yaradıcılıq Mərkəzinin direktoru İlyas Nəsibov "BDU tələbələrinin elmi-tədqiqat və mühəndis-texniki yaradıcılıq fəaliyyəti", Şərqşünaslıq fakültəsinin dekan müavini Şahin Yusifli "Klassik poeziyanın azərbaycanlı nümayəndələrinin yaradıcılığında oyun adları ilə bağlı linqvopoetik sahə", Filologiya fakültəsinin Türkoloji araşdırmalar ETL-in elmi işçisi Pərvin Eyvazov "Müasir türkologiya: problemlər və perspektivlər" mövzularında məruzələr ediblər.

Konfransın sonunda 27 Mart - Azərbaycan Respublikasında "Elm günü"nə həsr olunmuş BDU əməkdaşları arasında "İlin alimi" müsabiqəsinin qalibləri elan olunub.

## BDU əməkdaşları arasında "İlin alimi" müsabiqəsinin qalibləri açıqlanıb

***27 Mart - Azərbaycan Respublikasında "Elm günü"nə həsr olunmuş BDU əməkdaşları arasında "İlin alimi" müsabiqəsinin nəticələri açıqlanıb.***

Müsabiqə Komissiyasının qərarı ilə, təbiət və dəqiq elmlər üzrə – BDU-nun nəzdində Tətbiqi-Riyaziyyat ETİ-nin direktor müavini, AMEA-nın müxbir üzvü Vaqif Quliyev I, Biologiya fakültəsinin Biofizika və biokimya kafedrasının müdiri, professor Rövşən Xəlilov II, BDU-nun nəzdində Fizika Problemləri ETİ-nin Nəzəri fizika şöbəsinin müdiri, dosent Şahin Ağayev III yerə, humanitar və ictimai elmlər üzrə – Beynəlxalq münasibətlər və iqtisadiyyat fakültəsinin Dünya iqtisadiyyatı kafedrasının müəllimi, iqtisad üzrə fəlsəfə doktoru Aytəkin Axundova I, Filologiya fakültəsinin Azərbaycan dilçiliyi kafedrasının dosenti Reyhan Həbibli II, Tarix fakültəsinin Avropa və Amerika ölkələrinin yeni və müasir tarixi kafedrasının müəllimi Zərifə Nəzirli III yerə layiq görülüblər.







Müsabiqədə I yerin qalibləri 2500, II yerin qalibləri 1500, III yerin qalibləri isə 1000 manat pul mükafatı və diploma təltif ediliblər.

BDU əməkdaşları arasında "İlin alimi" nominasiyası üzrə müsabiqə iki ildir keçirilir. Müsabiqənin məqsədi il ərzində aktiv elmi fəaliyyət göstərərək yüksək nəticələrə nail olmuş, təsir (impakt) faktorlu, tanınmış bazalarda indekslənən nüfuzlu jurnallarda və nəşrlərdə dərc edilmiş elmi məqalələri və digər elmi əsərləri olan, elmi işlərinə istinad edilən BDU-nun əməkdaşlarının mükafatlandırılmasıdır.



## "I Milli Texnologiya Sərgisi" təşkil olunub

***Martın 29-da Bakı Dövlət Universitetinin Tələbə Elmi-Texniki Yaradıcılıq Mərkəzinin təşkilatçılığı ilə "I Milli Texnologiya Sərgisi" təşkil olunub.***

27 Mart – Azərbaycan Respublikasında "Elm günü"nə həsr olunmuş sərgidə BDU-nun gənc tədqiqatçıları və tələbələrinin hazırladıqları 12 innovasiya və texnologiya layihəsi nümayiş etdirilib.

Komandalar tərəfindən layihələrin elektron dövrəsinin hazırlanması, proqramlaşdırılması, prototipin gövdəsinin 3D modelinin hazırlanması və çap edilməsi prosesləri canlı formada mərhələli olaraq təqdim olunub. Bundan başqa, triboelektrik nanogenerator, dezinfeksiya aparatı, məsafə sensorlu robot, "Spin coater" cihazı, miniatür soyuducu, ATM-lər üçün proqram təminatı layihələri sərgilənib.

## Novruz - əcdadlarımızın

# BDU-da Novruz bayramı münasibətilə musiqili tədbir

***Martın 18-də Bakı Dövlət Universitetində Novruz bayramı münasibətilə musiqili tədbir keçirilib.***

Universitetin Mədəniyyət-yaradıcılıq Mərkəzinin təşkilatçılığı ilə keçirilən konsert proqramı BDU-nun instrumental ansamblının ifasında “Novruzu” musiqisinin səsləndirilməsi ilə başlayıb. Mərkəzin solisti Rəqsanə Əsədova “Novruz bayramı” mahnısını ifa edib.

BDU-nun türkmənistanlı tələbəsi Şöhrət Kokajanov Türkmənistanda Novruz bayramının keçirilmə qaydaları haqqında məlumat verib. Universitetin qızlardan ibarət rəqs qrupu “Nəlbəki” rəqsi ilə çıxış edib. Kitabxanaçılıq-informasiya fakültəsinin tələbəsi Səbinə Həşimli “Yaylıq”, BDU-nun indoneziyalı tələbəsi Xalidə Tamami “Mən baharın qızıyam” mahnılarını səsləndiriblər. BDU-nun çinli tələbələri Son Ca Yi, Baxutnur, Co Şo, Zco co Yanq “Biz bir ailəyik” mahnısını çin dilində ifa ediblər.






Daha sonra BDU-nun vokal və qızlardan ibarət rəqs qrupları “Popuri” ilə çıxış edib, BDU-nun Qırğızıstandan olan tələbəsi Dinara Appasova isə öz ölkəsində Novruz adət-ənənələri ilə bağlı məlumat verib.

BDU-nun Xor kollektivi “Ana yurd” marşını səsləndirib. Sonda qızlardan ibarət rəqs qrupu “Yallı” rəqsini ifa edib.

Tələbələrin ifa etdikləri Azərbaycan və türk xalqlarının milli musiqi və rəqsləri alqışlarla qarşılanıb.

# BDU-da Novruz bayramına həsr olunmuş elmi sessiya

*(əvvəli 1-si səh.)*

Bu vaxt həmin yarımkürədə yay fəsli, Cənub yarımkürəsində isə qış fəsli müşahidə olunur. Cənub qütbü Günəşə dönmüş olarsa, onda bu yarımkürədə yay fəsli, digər yarımkürədə isə qış bərqərar olur. Yer Günəş ətrafında hərəkət etdikcə fəsillər bir-birini əvəz edir. Yer orbitin müəyyən nöqtələrindən keçəndə fırlanma oxu elə yerləşir ki, Günəşdən gələn şüalar hər iki yarımkürəyə eyni qədər düşür. Bu zaman yaz və payız fəsilləri müşahidə olunur. Beləliklə, Günəş yaz bərabərliyi nöqtəsinə gələndə qütblər istisna olmaqla Yer kürəsinin bütün hissələrində gecə gündüzə bərabər olur. Yerin Şimal yarımkürəsində astronomik yaz, Cənub yarımkürəsində isə astronomik payız başlayır. Bu hadisə məhz 20-21 mart tarixinə uyğun gəlir. Bəzi hallarda bu tarix martın 19-na düşür. XXI əsrdə yaz bərabərliyi günü 19 mart tarixinə 20 dəfə, 20 mart tarixinə 78 dəfə, 21 mart tarixinə isə cəmi 2 dəfə düşəcək. 2022-ci ildə Azərbaycan ərazisində baharın gəlişi martın 20-də, Bakı vaxtı ilə saat 19:33:23-də baş verəcək.




BDU-nun Arxeologiya və etnoqrafiya kafedrasının müəllimi, tarix üzrə fəlsəfə doktoru Hicran Mahmudova isə “Türk xalqlarının etnoqrafiyasında Novruz ənənələri” adlı məruzə edib. O bildirib ki, mifoloji bayramlar xalqlara öz qədim ənənələrini qoruyub saxlamağa imkan verir. Novruz bayramı yazın gəlişini simvolizə edən, çox qədim zamanlardan ənənəyə çevrilən, mədəni köklərə və mənəvi qaynaqlara bağlı olan qədim xalq bayramıdır.

Məruzəçi qeyd edib ki, türk xalqlarının etnoqrafiyasında, mifik dünyagörüşündə “Novruz”un “Yaradılış bayramı” olması xüsusilə vurğulanır. İnanca görə, əski türklərin 400 il əziyyət çəkərək qaldıqları yerdən bir bozqurdun yol göstərməsi ilə xilas olduqları gün martın 21-nə təsadüf etdiyindən, onlar üçün yeni həyat başlanıb.

Daha sonra məruzəçi müxtəlif türk xalqlarının Novruz adətləri barədə məlumat verib.

# Kimya fakültəsində Novruz bayramına həsr olunan tədbir keçirilib

***Martın 18-də Kimya fakültəsində Novruz bayramına həsr olunan tədbir keçirilib. Tədbirdə çıxış edən Kimya fakültəsinin dekanı Fuad Kərimli və dekan müavini Taleh Qəhrəmanov Novruz bayramı münasibətilə tədbir iştirakçılarını təbrik ediblər.***

Qeyd olunub ki, Novruzun milli-mənəvi dəyərlərimizin və adətlərimizin qorunub saxlanmasında özünəməxsus yeri var, bu bayram xalqın tarixi keçmişinə sarsılmaz tellərlə bağlılığının rəmzidir.

Tədbirdə Kimya fakültəsinin birinci kurs tələbələri Səidə İsmayılova “Novruz, gəl”, Aydan Bağırova “Novruz bayramı” şeirlərini səsləndiriblər. Məhluqə Məsimova skripkada “Fairtale”, Mehriban Ağabəyli “Fly me to the moon”, Aygün Məmmədova “Səndən nigaranam” musiqilərini ifa ediblər.

Kimya fakültəsinin tələbələrindən ibarət rəqs qrupunun “Arşın mal alan” və “Uzundərə” rəqsləri alqışlarla qarşılanıb.

Şənlikdə fakültənin tələbəsi Babək Rzayev və “Unikal” musiqi qrupunun ifasında bəstəkar və xalq mahnıları səsləndirilib.

# İqtisadiyyat və Humanitar Kollecdə Novruz bayramı qeyd edilib

***Martın 18-də Bakı Dövlət Universitetinin nəzdində İqtisadiyyat və Humanitar Kollec və Filologiya fakültəsinin birgə təşkilatçılığı ilə Novruz bayramına həsr olunmuş "Yeddi gözəl xonçası" adlı tədbir keçirilib.***

Kollecin direktoru, professor Səhər Orucova bayram münasibəti ilə tədbir iştirakçılarını təbrik edib, xalqımızın milli dəyərlərə önəm verməsi baxımından Novruzun keçirilməsinin əhəmiyyətini vurğulayıb. Ümummilli Lider Heydər Əliyevin bayramın dövlət səviyyəsində qeyd olunması məqsədi ilə atdığı mütərəqqi addımları qeyd edən direktor Prezident İlham Əliyevin hər il dövlət səviyyəsində keçirilən Novruz şənliklərində iştirak etməsini, xalqımıza təbrik ünvanlamasını, həmçinin Azərbaycanın I Vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, UNESCO və İSESCO-nun xoşməramlı səfiri Mehribanın xanım Əliyevanın Novruz bayramının beynəlxalq müstəvidə tanıdılması, təbliği istiqamətində fəaliyyətini milli-mənəvi dəyərlərə dövlət qayğısı kimi xarakterizə edib.

Sonra Filologiya fakültəsinin dekanı, dosent Elçin Məmmədov Novruz bayramının tarixi, adətləri, mərasimləri barədə tədbir iştirakçılarına məlumat verib. Kollecin və universitetin tələbələri yeddi regionda - Naxçıvan, Qarabağ, İrəvan, Gəncə, Şirvan, Lənkəran, Bakıda Novruz bayramının qeyd olunmasını əks etdirən səhnəciklər nümayiş etdiriblər.

Tədbirdə tələbələrin hazırladıqları xonçalar, çəkdikləri rəsmlər nümayiş etdirilib, "Xonça müsabiqəsi"nin qalibləri seçilib.

Sonda tədbir iştirakçıları bayram tonqalı ətrafında yallı gedib.

## müqəddəs yadigarı

# Novruz: milli birlik, barış, bərəkət və bolluq bayramı

*Novruz qədim tarixə malik olan bayramlarımızdandır. Novruz nə bir məzhəb, nə də bir dinin bayramıdır. Bu bayram baharın gəlməsi münasibətilə qeyd edilir. Novruz astronomik hadisə ilə bağlı gündür. Həmin gün Şimal yarımkürəsində astronomik yaz girir, gecə-gündüz bərabərləşməsi baş verir. Bir sıra xalqlar yaz fəslinin gəlməsini təbiətin canlanması ilə bağlayır, bu münasibətlə şənliklər keçirirlər. Azərbaycanda gecə ilə gündüzün bərabərləşdiyi gün bayram kimi qeyd edilir.*

Bu bayram həm xalq adət-ənənəsini, həm mifoloji dünyagörüşünü, həm də sakral bilikləri özündə cəmləyir. Bəzi tədqiqatçılar ritual-mifoloji kökləri baxımından Novruz bayramının dörd iri mərhələdən keçdiyini söyləyirlər:

1. Mif mərhələsi;
2. Ritual mərhələsi;
3. Mərasim mərhələsi;
4. Bayram mərhələsi.

Lap qədimlərdən astronomik Günəş təqviminə əsasən, Novruz yeni ilin başlanğıcı sayılır. Ömər Xəyyamın "Novruznamə"sində, Səlcuqlu Vəzir Nizam ül-mülkün "Siyasətnamə"sində, Mahmud Kaşğarlının "Divan-i-Lüğət-it-türk"ündə, Nizami Gəncəvinin əsərlərində, Məlik şah təqvimində, Qazi Bürhanəddinin, Səfəvi şahı Şah İsmayılın divanında türklərin yaşam tərzini, adət-ənənəsini əks etdirən Novruz bayramı haqqında məlumatların yer alması bu bayramın qədim tarixə malik olduğunun sübutudur. Məlik şah Ömər Xəyyama təqvim hazırlaması göstərişini verərkən onun qarşısına qoyduğu şərt ilin başlanğıc gününün məhz yaz gecə-gündüz bərabərliyi ilə üst-üstə düşməsi idi. Ömər Xəyyamın 1074-cü ildə hazırladığı və Məlik şahın şərəfinə "Məlik şah cədvəli", "Sultan təqvimi", "Təqvimicəlaliyyə" adlandırdığı təqvimində ilin başlanğıc günü Novruz bayramı ilə üst-üstə düşür.

Novruz bayramı Azərbaycanda olmuş Avropa səyyahlarının xatirələrində də əks olunub. Alman alimi Adam Oleari XVII əsrin birinci yarısında Şamaxıda Novruz bayramında iştirak edib. Adam Olearinin xatirələri Novruz bayramının geniş şəkildə keçirildiyini təsdiq edir. Tədqiqatçının sözlərinə görə, həmin gün astroloq Günəşin gecə ilə gündüzün bərabərləşəcəyi nöqtədən nə zaman keçəcəyini izləyir, həmin an çatanda isə bunu ucadan elan edirdi.

Türk xalqlarının qədim dastanlarından olan "Ergenekon" dastanında da türklərin Ergenekondan çıxdıqları gün məhz 21 marta təsadüf edir. Bu günə Hürmüz günü, yəni Tanrı günü deyilərdi. Həmin günə hazırlaşan insanlar dörd müqəddəs ünsürlə paklanardılar. Həmin adətlərdən biziləri indiyə qədər öz aktuallığını qoruyur. Məhz buna görə də bu bayramın qədim adlarından da biri Ergenekondur. Bundan başqa, Novruza "Bozqurd", "Çağan", "Nevruz", "Sultan Nevruz", "Mart Doqquzu", "Novruz" və s. də deyilib. "Novruz" anlayışı bəzi deyiliş fərqlərilə bir çox türk xalqlarının dillərində işlənməkdədir. Novruz şənliklərinin əsas personajları Kosa və Keçəldir. Keçəllə Kosanın məzhəkəli tamaşası müqabilində yazla qışın bir-birilə mübarizəsi əks olunur. Qış öz yerini yaza təhvil vermək istəmir, yaz isə bu yeri əldə etməyə çalışır.

Mərasim yeməkləri, eləcə də Novruz şirniyyatları xalqın əməli biliklərini, zövqü, təsərrüfat məşğuliyyəti, mifoloji dünyagörüşü ilə əlaqədar yaranıb. Novruz şirniyyatlarında türk kosmoqonik dünyagörüşünün simvolları öz əksini tapıb. Novruzda ayın rəmzi kimi şəkərbura, badambura, günəşin rəmzi kimi qoğal, şəkərçörəyi simvolizə olunur. Paxlavanın romb şəklində bişirilməsi də türk kosmoqonik təfəkkürü və sakral bilikləri özündə birləşdirən mifoloji dünyagörüşlə bağlıdır. Paxlavanın romb şəklində verilməsi ulduzun rəmzidir. Lakin şumerlərdə Günəş romb işarəsi ilə verildiyi üçün günəşin simvolu kimi də götürülür. Bundan başqa, romb inkişaf və doğuluşun rəmzi olub, sakral mənasına görə qadın başlanğıcıyla bağlanır. Paxlavanın mərkəzinə qoyulan fındıq, qoz, badam bu oxşarlığı gücləndirir.

Yumurta bayramın əsas komponentdidir və masada boyalı şəkildə görünməlidir. Yumurta boyamaq da qədim adətlərdəndir. Yumurtanı həyatın rəmzi kimi götürürlər. Yumurtanın içindəki ağ maye yaradılışın başlanğıcı, sarı rəng irqin, yəni fərqli yaradılışın, qabığı isə səma və kosmik tağın simvoludur. Qırmızı rəngə boyanmış yumurtalar torpağın dirilməsini, canlanmasını ehtiva edir.




Yumurta döyüşdürülməsi isə iki dünyanın - qışla yazın, soyuqla istinin, xaosla - kosmosun mübarizəsini əks etdirir. Bəzi mənbələrdən aydın olur ki, yumurta döyüşdürülməsi zamanı onun çiy olması əsas şərtlərdəndir. Çiy yumurta birbaşa həyatı, diriliyi rəmzləndirir. Qalib yumurta yazı təmsil edir. Yaz isə həyat deməkdir. Yumurtanın bişirilməsi onun öldürülməsi və ya qurban verilməsi deməkdir. İnanca görə, bişmiş yumurta onu yeyən insanlara həyat verir. Hazırda isə yumurta döyüşdürülməsi zamanı bişmiş, rəngli yumurtalardan istifadə olunur.

Tonqal üstündən atlanmaq isə qədimdən gələn bir ritualdır. Onu çox zaman Tanrılara qurban vermə ritualı ilə eyniləşdirirlər. Bununla da insanlar tonqal üstündən atlanaraq öz ağırlıqlarını, uğursuzluqlarını odda yandıracaqlarına inanırlar. Tonqal qalama adətini zərdüştlüklə bağlayırlar. Bu fikirlə razılaşmayıb qeyd etmək istəyirəm ki, Lev Nikolayeviç Qumilyovun araşdırmasına görə, od türk düşüncəsində təmizlənmə vasitəsidir. Xalqımız bayram günü tonqaldan atlanarkən arınmağı, təmizlənməyi niyyət edir.

Azərbaycan xalqı milli dəyərlərə və ənənələrə sadiqdir. Azərbaycan dövlətini bu dəyərlər üzərində quran Ümummilli lider Heydər Əliyev Novruz bayramını xalqımızı tarixən bütövləşdirən, onun varlığını birlik, böyüklük və yaşam gücü ilə qidalandıran fenomen kimi qiymətləndirib: "Böyük mənəvi gücə malik olan Novruz bayramı ulu əcdadlarımızın bizə verdiyi ən gözəl yadigar olub, Azərbaycan xalqının milli ruhunu və yaddaşını, onun daxili aləmini bütün zənginliyi ilə yaşadır. Təbiətin oyanışının, varlığın yenidən canlanmasının müjdəsini verən Novruz bayramı ən qədim zamanlardan bəri həyat və məişətimizə daxil olmuş, insanlara aydın və işıqlı sabaha, xoşbəxt gələcəyə inam duyğusu bəxş etmişdir". Bu dəyərlər Azərbaycan Prezidenti İlham Əliyevin siyasi kursunda uğurla davam etdirilir.

Azərbaycan Respublikasının birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun və Azərbaycan Mədəniyyət Fondunun Prezidenti, UNESCO və ISESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın təşəbbüsü ilə 2009-cu ilin sentyabrında Novruz bayramı UNESCO-nun Qeyri-maddi mədəni irs siyahısına daxil edilib. BMT-nin Baş Məclisi isə martın 21-ni "Beynəlxalq Novruz Günü" elan edib.

***Səhər Orucova,***
*Azərbaycan şifahi xalq ədəbiyyatı kafedrasının müdiri, filologiya elmləri doktoru, professor*

# "Azərbaycanda Novruz ənənələri" adlı elmi seminar

***Martın 2-də Filologiya fakültəsinin Azərbaycan şifahi xalq ədəbiyyatı kafedrasında "Azərbaycanda Novruz ənənələri" adlı elmi seminar keçirilib.***

Elmi seminarda kafedranın professor-müəllim heyəti, magistrant və doktorantları iştirak ediblər.

Azərbaycan şifahi xalq ədəbiyyatı kafedrasının müdiri professor Səhər Orucova Novruz bayramının xalq adət-ənənəsini və mifoloji dünyagörüşünü özündə cəmləşdirdiyini, bu adətlərin öyrənilməsində folklorşünasların üzərinə böyük məsuliyyət düşdüyünü qeyd edib.

Novruz bayramının Azərbaycan xalqının milli ruhunu və yaddaşını, onun daxili aləmini bütün zənginliyi ilə yaşatdığını vurğulayan Səhər Orucova bu bayramın dövlət səviyyəsində qeyd edildiyini, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın təşəbbüsü ilə 2009-cu ilin sentyabrında Novruz bayramının UNESCO-nun "Qeyri-maddi mədəni irs siyahısı"na daxil edildiyini bildirib.



Magistrant Bəsti Səttarova "Novruzun qədim adətləri" adlı məruzə ilə çıxış edib. O, çıxışında Novruz bayramının tarixi, adətləri, mərasimləri, şirniyyatları barədə ətraflı məlumat verib.

Magistrant Gülyaz Hümmətzadə "Şəkinin Bideyiz kəndində Novruz ruhu" adlı məruzəsində həmin bölgənin bayram ənənələrindən söz açıb.

"Folklor" dərnəyinin üzvü Səbinə Cəlilova baharın gəlişinə həsr olunan mahnılar ifa edib.

Sonda məruzələrlə bağlı müzakirələr aparılıb.

# "Şərq ölkələrində Novruz bayramı və ənənələr" adlı tədbir

***Martın 18-də Şərqşünaslıq fakültəsi Tələbə Həmkarlar Təşkilatı Komitəsinin təşkilatçılığı ilə "Şərq ölkələrində Novruz bayramı və ənənələr" adlı bayram tədbiri keçirilib.***

Şərqşünaslıq fakültəsinin professor-müəllim heyəti və tələbələrinin iştirak etdiyi tədbirdə Dövlət himni səsləndirilib, şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Fakültənin dekanı, dosent Aydan Xəndan iştirakçıları bayram münasibətilə təbrik edib, türk xalqları arasında bayramın keçirilməsi ilə bağlı təsəvvürlər, yaşadığımız coğrafiya üçün Novruzun əhəmiyyətindən danışıb.

Fakültənin Sosial məsələlər və tələbələrlə iş üzrə dekan müavini Şahin Yusifli Orta Şərq ölkələrinin müştərək irsi olan Novruzun tarixi əhəmiyyəti, zərdüştilik təsəvvürlərinin geniş yer aldığı bayramın yayıldığı ölkələr, Avestada Novruz haqqında məsələlər, Novruz sözünün etimologiyası və digər mifoloji təsəvvürlərdən bəhs edib.

Tədbirdə tələbələr təhsil aldıqları Şərq dillərində həmin ölkələrdə Novruz bayramı ilə əlaqədar olan ənənələrdən danışıb, Azərbaycan dilində qısa xülasələr təqdim ediblər.

Çıxışçılar bayramın müştərək motivlərinin xalqlar arasında mədəni körpü yaratdığını vurğulayıblar.

Sonda Novruz bayramına həsr olunmuş videoçarx nümayiş etdirilib.

# "30 illik işğal dövründə ermənilərin Azərbaycan torpaqlarında törətdikləri vandalizmin KİV-də işıqlandırılması"

*Martın 1-də Jurnalistika fakültəsinin Beynəlxalq jurnalistika və informasiya siyasəti kafedrasında "30 illik işğal dövründə ermənilərin Azərbaycan torpaqlarında törətdikləri vandalizmin KİV-də işıqlandırılması" mövzusunda elmi seminar keçirilib.*



Seminarda çıxış edən fakültənin elmi işlər üzrə dekan müavini Sevinc Əliyeva ermənilərin Azərbaycan torpaqlarında törətdikləri vandalizm aktlarının yerli və beynəlxalq KİV-də yayılmasının əhəmiyyətini vurğulayıb.

Kafedranın doktorantı Şahnaz Abdullayeva eyniadlı məruzə ilə çıxış edib.

O bildirib ki, birinci Qarabağ müharibəsi dövründə ermənilər tarixi Azərbaycan torpaqlarının 20 faizini işğal edib, 30 ilə yaxın davam edən işğal müddətində bu ərazilərdə vandalizm aktları törədiblər. Azərbaycanın dini, tarixi, mədəni abidələri vəhşiliklə dağıdılıb. 44 gün davam edən Vətən müharibəsi Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi, şanlı ordumuzun şücaəti ilə zəfərlə başa çatıb və torpaqlarımız işğaldan azad olunub.

Şahnaz Abdullayeva ermənilərin Azərbaycan torpaqlarında törətdikləri vandalizm aktlarının yerli və xarici KİV-də işıqlandırılması məsələlərinə dissertasiya işində geniş yer verdiyini seminar iştirakçılarının diqqətinə çatdırıb.

Beynəlxalq jurnalistika və informasiya siyasəti kafedrasının professoru Həmid Vəliyev, siyasi elmlər doktoru Sabir Məmmədli, dosent Aytəkin Zeynalova Şahnaz Abdullayevanı mövzu ilə bağlı hazırlığını yüksək qiymətləndiriblər.

# Geologiya fakültəsi: Samur-Şabran zonasının bəzi sahələri təkrar şoranlaşıb

*Martın 1-də Geologiya fakültəsində "Samur-Şabran zonasının suvarılan torpaqlarının hidrogeoloji-meliorativ şəraitinin formalaşması amillərinin xarakteristikası" mövzusunda elmi seminar keçirilib.*



Fakültə dekanı Mamoy Mansurov elmi seminarın tədqiqat obyektinin Böyük Qafqaz sıra dağlarının şimal-şərq hissəsindən Xəzər dənizinə qədər olan sahəni əhatə etdiyini qeyd edib.

Hidrogeologiya və mühəndis geologiyası kafedrasının müəllimi Günay Hüseynova mövzu ilə bağlı məruzə edib, həmin sahədə torpağın hidrogeoloji-meliorativ şəraitinin əsas göstəriciləri, qrunt sularının yatım dərinliyi, minerallaşması, kimyəvi tərkibi və torpaq-qruntların şoranlaşması haqqında məlumat verib.

Qeyd olunub ki, oroqrafik cəhətdən ərazi Xəzər dənizinə doğru tədricən maili olan və əvvəlcə Qusar dağətəyi düzənliyinə, sonra isə aşağı düzən sahəyə keçən yüksək dağlarla xarakterizə olunur.

Günay Hüseynova qeyd edib ki, Samur-Şabran zonasının suvarılan torpaqlarının 15%-i qeyri-qənaətbəxş hidrogeoloji-meliorativ vəziyyətdə, bəzi sahələrdə qrunt suyu səviyyəsi yer səthindən 1-1,5 m dərinlikdədir. Bəzi ərazilərdə suvarılan torpaqlarda hətta bataqlıqlaşma müşahidə olunur, nəticədə torpağın üst qatı təkrar şoranlaşıb. Suvarma sularının qeyri-səmərəli istifadəsi torpaqların hidrogeoloji-meliorativ vəziyyətinin daha tez pisləşməsinə səbəb olur. Buna görə də hidrogeoloji-meliorativ vəziyyəti qeyri-qənaətbəxş olan torpaqların üzərində daimi nəzarət lazımdır.

Seminarın sonunda məruzədə göstərilən məsələlər və əldə olunmuş nəticələrin tətbiq sahələri müzakirə olunub.

# Fizika fakültəsində elmi seminar

*Martın 2-də Fizika fakültəsində növbəti elmi seminar keçirilib. Seminarda Astrofizika kafedrasının dosenti Xıdır Mikayılov "Şamaxı Astrofizika Rəsədxanasının 2 metrlik teleskopunun optik lifli eşelle spektroqrafı – ShaFES" mövzusunda məruzə ilə çıxış edib.*

Məruzəçi spektroqrafın optik sxemi, əhəmiyyəti, üstünlükləri və tətbiq sahələri haqqında ətraflı məlumat verib. Spektroqrafda müşahidə zamanı 2 metrlik teleskopda ulduzun izlənmə prosesi avtomatlaşdırılır və xəyal birbaşa olaraq müşahidə otağındakı monitora ötürülür.

Spektroqraf tərpənməz və qapalı olduğuna, həmçinin tədqiq olunan obyektin və kalibrləmə lampalarının işığının eyni kanalla verildiyinə görə instrumental sürüşmələr olmur və spektral parametrlərin ölçmə dəqiqliyi çox yüksək olur (məsələn, radial sürətlərdə ~±10 m/s, ekvivalent eni 1-5 % dəqiqliklə təyin etmək olur). Ulduz atmosferinin kimyəvi tərkibinin yüksək dəqiqliklə təyin olunması dəyişən ulduz spektrlərində spektral xətlərin profillərinin dəyişməsinin və astroseysmoloqiyanın araşdırılmasına, ulduzların radial sürətlərinin yüksək dəqiqliklə təyin olunması yeni qoşa və çoxqat ulduzların və ekzoplanet sistemlərin tapılmasına imkan verər. O cümlədən, ulduz spektroskopiyası sahəsində unikal tədqiqatlar aparmağa, beynəlxalq əlaqələri inkişaf etdirməyə və qrant layihələrinin Rəsədxanaya gətirilməsinə şərait yaradar.

Seminarın sonunda mövzu ətrafında geniş müzakirələr aparılıb və suallar cavablandırılıb.

# 8 Mart - Beynəlxalq Qadınlar Günüdür



*BDU-nun rektoru Elçin Babayev Beynəlxalq Qadınlar Günü münasibətilə bütün qadınları, eləcə də Universitetin xanım əməkdaş və tələbələrini təbrik edib.*

Rektor qeyd edib ki, Azərbaycan qadınları tarixin bütün dönəmlərində cəmiyyətin hərəkətverici qüvvəsi, milli-mənəvi dəyərlərimizin əsas daşıyıcısı olub. 8 Mart bayramı 1910-cu ildən bəri dünyada qadınlara sevgi və hörmətin rəmzinə çevrilib. Şərqdə ilk dəfə, hətta Avropa ölkələrinin əksəriyyətindən əvvəl qadınların səsvermə hüququnu tanımış ölkə kimi Azərbaycanda gender siyasəti, qadınların ölkənin ictimai-siyasi, mədəni həyatında fəal iştirakı əsas prioritetlərdən birini təşkil edir.



BDU-nun rektoru vurğulayıb ki, Ulu Öndər Heydər Əliyev Azərbaycan qadınlarına həmişə yüksək qiymət verib, onları cəmiyyətin hərəkətverici qüvvəsi adlandırıb. Ulu öndərin bu siyasəti Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Azərbaycan qadınları dövlətin bütün strukturlarında ləyaqətlə təmsil olunur.

Cəmiyyətin hər zaman nümunələr yaradan şəxsiyyətlərə ehtiyacı olduğunu qeyd edən rektor bildirib ki, Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun rəhbəri, UNESCO və ISESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyeva ölkəmiz və ümumilikdə dünya qadınları üçün belə bir nümunədir. O, öz çoxşaxəli fəaliyyəti ilə Azərbaycan qadınının simvoluna çevrilib. Mehriban xanım Əliyevanın rəhbərliyi ilə milli maraqlarımıza xidmət edən və ənənələrimizi yaşadan çoxsaylı layihələrin uğurla icra olunması Azərbaycan qadınının mərhəmət və xeyirxahlığının, zəngin mənəvi və yüksək əxlaqi dəyərlərə malik olduğunun bariz nümunəsidir. Qadınların dövlət strukturlarında iştirakını təmin etmək və onları həyatın bütün sahələrində fəal iştiraka cəlb etmək cəmiyyətin davamlı inkişafının bir hissəsinə çevrilib. 44 günlük Vətən müharibəmiz, Qələbəni qanı-canı ilə yazan oğullar Azərbaycan qadınlarının necə nəhəng, müqəddəs bir missiyanı şərəflə daşıdıqlarını ortaya qoydu.

Elçin Babayev xatırladıb ki, ölkənin ən böyük ali məktəbi olan BDU-da tələbələrin 60, işçi heyətin isə 50 %-dən çoxunu qadınlar təşkil edir. O, BDU ailəsinin qadın təmsilçilərinə bu şərəfli işdə uğurlar arzulayıb.

Sonra tədbir musiqi proqramı ilə davam edib.

# BDU-nun Jurnalistika fakültəsi Teleradio Akademiyası ilə əməkdaşlığa başlayıb



Martın 5-də Bakı Dövlət Universitetinin Jurnalistika fakültəsi ilə “Azərbaycan Televiziya və Radio Verilişləri" QSC-nin nəzdində fəaliyyət göstərən Teleradio Akademiyası arasında anlaşma memorandumu imzalanıb.

Tədbirdə Teleradio Akademiyasının rektoru Telli Əliyeva, prorektoru Almaz Nəsibova, BDU-nun Jurnalistika fakültəsinin dekanı Vüqar Əliyev və kafedra müdirləri iştirak ediblər.

Teleradio Akademiyasının rektoru Telli Əliyeva Azərbaycan jurnalistikasının müasir inkişaf istiqamətlərindən söhbət açıb və jurnalistikanın tədrisində praktik təlimlərin əhəmiyyətini vurğulayıb. Telli Əliyeva jurnalistlərin peşəkar kadr kimi yetişdirilməsi üçün nəzəri biliklərlə yanaşı, təcrübi vərdişlərin aşılanmasının zəruri olduğunu deyib.

Jurnalistika fakültəsinin dekanı Vüqar Əliyev bildirib ki, imzalanacaq memoranduma əsasən, müəllim və tələbələr Teleradio Akademiyasının həyata keçirdiyi layihələrdə iştirak etmək imkanı qazanacaqlar. Jurnalistika fakültəsinin elmi-pedaqoji dəstəyi ilə Akademiyanın müdavimləri üçün təlim və treninqlər keçiriləcək, birgə dəyirmi masalar, müsabiqələr təşkil olunacaq.

Qeyd olunub ki, birgə tədbirlərin həyata keçirilməsi jurnalistika tədrisinin inkişafına öz töhfəsini verəcək.

Milli mətbuat tarixi kafedrasının müdiri, professor Cahangir Məmmədli, Multimedia və elektron kommunikasiya kafedrasının müdiri, professor Allahverdi Məmmədli, Beynəlxalq jurnalistika və informasiya siyasəti kafedrasının müdiri, dosent Aynur Nəsirova, Yeni media və kommunikasiya nəzəriyyəsi kafedrasının müdiri, dosent Xatirə Hüseynova Azərbaycan mediasının inkişafı naminə yüksək peşəkarlığa və geniş dünyagörüşünə malik jurnalist kadrların hazırlığı istiqamətində birgə fəaliyyətin əhəmiyyətindən bəhs ediblər. Jurnalistika sahəsində yeni elmi tədqiqatların aparılması, yaradıcılıq müsabiqələrinin, tələbələrin tanınmış jurnalist və yazarlarla görüşlərinin təşkili, maarifləndirici tədbirlərin həyata keçirilməsində əməkdaşlığın vacibliyi vurğulanıb.

# "Jurnalistika: rəqəmsal yazıdan rəqəmsal epoxaya qədər" adlı ustad dərsi



***Martın 14-də Jurnalistika fakültəsində Türkiyənin tanınmış sosial media və xəbərçilik təlimçisi Bahadır Avşar "Jurnalistika: rəqəmsal yazıdan rəqəmsal epoxaya qədər" adlı ustad dərsi keçib.***

Ustad dərsi Jurnalistika fakültəsi ilə AzTV-nin Teleradio Akademiyası arasında imzalanmış əməkdaşlıq müqaviləsi çərçivəsində 27 Mart - Azərbaycan Respublikasında “Elm günü”nə həsr olunmuş tədbirlər planına uyğun olaraq keçirilib.

Əvvəlcə Bahadır Avşar BDU-nun Jurnalistika fakültəsinin Tədris teleradio studiyasında tələbələrin praktiki fəaliyyəti ilə tanış olub.

Bahadır Avşar ustad dərsində jurnalistikanın tarixi, nəzəriyyəsi və müasir vəziyyəti haqqında bəhs edib, praktik jurnalist biliklərini paylaşıb.

Daha sonra TRT şirkəti haqqında məlumat verən Bahadır Avşar hazırda şirkətin 18 kanalının fəaliyyət göstərdiyini diqqətə çatdırıb. Məruzədə həmçinin TRT kanallarının xüsusiyyətləri, xəbərçiliyin əsasları, yeni media, sosial media, internet televiziya kanallarının iş prinsiplərindən söz açıb. “Təbliğat”, “İnformasiyanın idarə edilməsi”, “Kütləvi kommunikasiya nəzəriyyələri”, “Korporativ kommunikasiya və rəqəmsal məzmunun idarə edilməsi” mövzularından da bəhs edib.

Görüşdə Jurnalistika fakültəsinin dekanı Vüqar Əliyev, fakültənin Yeni media və kommunikasiya nəzəriyyəsi kafedrasının müdiri Xatirə Hüseynova, Multimedia və elektron kommunikasiya kafedrasının müdiri Allahverdi Məmmədli, Beynəlxalq jurnalistika və informasiya siyasəti kafedrasının müdiri Aynur Nəsirova və fakültənin professor-müəllim heyəti iştirak edib, fakültə ilə TRT arasında əməkdaşlığın perspektivləri müzakirə olunub.

Rəqəmsal diplomatiya sahəsində doktorluq dərəcəsi almış Bahadır Avşar uzun illər Türkiyədə bir sıra dövlət qurumlarında media və ictimaiyyətlə əlaqələr üzrə çalışıb. 2015-ci ildən etibarən TRT-nin Baş katibliyində araşdırmaçı kimi fəaliyyət göstərir və jurnalistikanın müxtəlif istiqamətləri üzrə təlimlər keçirir.

# "Beynəlxalq təşkilatların tarixi" adlı təlim keçirilib

***Bakı Dövlət Universitetinin Tələbə Həmkarlar İttifaqı Komitəsi və Beynəlxalq münasibətlər və iqtisadiyyat fakültəsinin birgə təşkilatçılığı ilə "Beynəlxalq təşkilatların tarixi" adlı təlim keçirilib.***

Tədbirdə çıxış edən Beynəlxalq münasibətlər və iqtisadiyyat fakültəsi üzrə THİK sədri İbrahim Özsoy xarici siyasətdə beynəlxalq təşkilatlarla münasibətlərin yüksək səviyyədə qurulmasının xüsusi önəmə malik olmasını qeyd edib.

Tədbirin məruzəçisi, BDU-nun THİK sədri Hacıbaba Mustafayev beynəlxalq təşkilatların tarixi haqqında ümumi məlumat verib, onların müasir beynəlxalq münasibətlər sistemində yeri və rolunu tədbir iştirakçılarının diqqətinə çatdırıb.

Qeyd olunub ki, əsasında milli maraqlarının qorunması dayanan xarici siyasət kursunun formalaşması və həyata keçirilməsi Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlıdır. Bu siyasət Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Prezident İlham Əliyevin həyata keçirdiyi dinamik, intensiv və çevik xarici siyasət kursu sayəsində milli maraqlarımız hər zaman təmin olunub və Azərbaycan dünyanın dialoq mərkəzlərindən birinə çevrilib.

# Şəmsəddin Küzəçinin “İraq mətbuat tarixi 150-ci ilində” kitabının təqdimatı



***Martın 17-də Jurnalistika fakültəsində Dünya Jurnalistlər Dərnəyi, Kərkük Mədəniyyət Mərkəzi və İraq-Türkmən Mətbuat Şurasının qurucusu və rəhbəri Dr. Şəmsəddin Küzəçinin “İraq mətbuat tarixi 150-ci ilində” kitabının təqdimatı keçirilib.***

Tədbirin moderatoru, fakültənin dekan müavini Samir Mirzəyev Şəmsəddin Küzəçinin həyat və yaradıcılığı ilə bağlı tədbir iştirakçılarını məlumatlandırıb. O bildirib ki, Şəmsəddin Küzəçi 50-yə yaxın kitabın müəllifidir. Onun sonuncu kitabı 2021-ci ildə çap etdirdiyi “İraq mətbuat tarixi 150-ci ilində”dir.

Sonra söz qonağa verilib. Şəmsəddin Küzəçi “İraq mətbuat tarixi (1869-2019)”, “İraqda krallıq dövründə informasiya siyasəti (1921-1958)”, “Cumhuriyyət və BƏƏS Partiyası dövründə kütləvi kommunikasiya (1958-2003)”, “İşğaldan sonrakı dövrdə kütləvi kommunikasiya və mətbuat azadlığı ( 2003-2019)” kitabları haqqında professor-müəllim heyəti və tələbələrə məlumat verib.

Qonaq İraqda ilk radio, televiziya kanallarının və qəzetlərin yaranması tarixi ilə bağlı geniş məruzə edib. Şəmsəddin Küzəçi "İraq mətbuat tarixi 150-ci ilində" kitabını fakültə dekanı Vüqar Əliyevə təqdim edib. Qeyd olunub ki, kitab İraqın, həmçinin türkmən xalqının milli mətbuat tarixini əhatə edir.

Görüşdə Əməkdar elm xadimi, folklorşünas Qəzənfər Paşayev, Türkiyənin Azərbaycandakı səfirliyinin mətbuat müşaviri Hüseyn Altınalan, BDU-nun Beynəlxalq jurnalistika və informasiya siyasəti kafedrasının müəllimi, siyasi elmlər doktoru Sabir Məmmədli, Ərəb filologiyası kafedrasının müəllimi Heybət Heybətov Şəmsəddin Küzəçinin kitabları ilə bağlı təəssüratlarını bölüşüblər.

Sonda Jurnalistika fakültəsinin bir qrup müəllimi Dünya Jurnalistlər Dərnəyinin diplomuna layiq görülüb və dərnəyin fəxri üzvlüyünə qəbul ediliblər.

# "Onomastika bir elm sahəsi kimi" mövzusunda ustad dərsi

***Martın 30-da Filologiya fakültəsinin Azərbaycan dilçiliyi kafedrasının təşəbbüsü ilə 27 Mart - Azərbaycan Respublikasında "Elm günü"nə həsr olunmuş tədbirlər çərçivəsində filologiya elmləri doktoru, dosent Reyhan Həbiblinin "Onomastika bir elm sahəsi kimi" mövzusunda ustad dərsi keçirilib.***

Tədbirdə fakültənin professor-müəllim heyəti və tələbələr iştirak edib.

Reyhan Həbibli məruzədə onomastikanın dilçilik sahəsi kimi mahiyyətindən, əsas xüsusiyyətlərindən, fənlərarası xarakterindən, xüsusi adların işlənmə qanunauyğunluqlarından söz açıb.

Ustad dərsi mövzu ilə bağlı müzakirə və çıxışlarla davam edib.

İştirakçılar məruzəçiyə suallar ünvanlayıblar. Çıxışlarda onomastikanın əsas obyekti olan xüsusi adların dilin lüğət tərkibində mövqeyindən bəhs edilib, bu vahidləri araşdırmağın vacibliyi diqqətə çatdırılıb.

## Yaddaş

# BDU-da "Mart soyqırımı - 104" adlı kitab sərgisi açılıb

***Bakı Dövlət Universitetinin Elmi Kitabxanası 31 Mart - Azərbaycanlıların Soyqırımı Gününə həsr olunmuş "Mart soyqırımı - 104" adlı kitab sərgisi təşkil edib.***

Sərgidə kitabxananın fondlarında mühafizə olunan "Azərbaycanlıların soyqırımı", "Azərbaycanda böyük terrorun tarixi", "Azərbaycanda türk-müsəlman soyqırımı probleminin tarixşünaslığı", "Erməni xəyanəti", "Erməni yalanları və tarixi həqiqətlər" və s. kimi ermənilərin Azərbaycan xalqına qarşı törətdikləri qanlı cinayətləri özündə əks etdirən Azərbaycan, ingilis və rus dillərində 40-dək kitab nümayiş olunur.

Sərgi həftənin sonunadək ziyarətçilərin üzünə açıq olacaq.




# İqtisadiyyat və Humanitar Kollecdə soyqırım qurbanları anılıb



***Bakı Dövlət Universitetinin nəzdində İqtisadiyyat və Humanitar Kollecdə 31 Mart – Azərbaycanlıların Soyqırımı Günü ilə bağlı tədbir keçirilib.***

Tədbiri giriş sözü ilə açan Kollecin direktoru, professor Səhər Orucova çıxışında 1918-ci ilin mart soyqırımının bolşeviklərin daşnaklarla birlikdə həyata keçirdikləri milli qırğın olduğunu deyib. Qeyd edib ki, bu dəhşətli soyqırım aktına hüquqi-siyasi qiymət Azərbaycan öz müstəqilliyini yenidən bərpa etdikdən sonra Ümummilli lider Heydər Əliyev tərəfindən verilib. Ulu Öndər 1998-ci il martın 26-da "Azərbaycanlıların soyqırımı haqqında" fərman imzalayıb, martın 31-i "Azərbaycanlıların Soyqırımı Günü" elan edilib. Bu sahədə aparılmış araşdırmalar nəticəsində yeni faktlar və sənədlər toplanılıb. Ümummilli liderin siyasətini davam etdirən Prezident İlham Əliyev də bu məsələyə xüsusi diqqət ayırıb.

Kollecin tarix müəllimləri Aynur Əkbərova və Kərəm Quliyev ermənilərin törətdikləri soyqırımlarla bağlı faktları arxiv sənədləri əsasında tədbir iştirakçılarının diqqətinə çatdırıblar. Qeyd olunub ki, təkcə 1905-1909-cu illərdə erməni terror qrupları tərəfindən 200-dən artıq qanlı aksiya həyata keçirilib. 1905-1907-ci illər ərzində daşnak silahlı qüvvələrinin sayı 100 min nəfərə çatdırılıb.

1918-ci ilin mart-aprel aylarında Bakı, Şamaxı, Quba, Muğan və Lənkəranda ermənilər 50 min nəfərdən çox azərbaycanlını qətlə yetirib, evləri qarət edib, yandırıb. Təkcə Bakıda 30 min nəfər xüsusi qəddarlıqla qətlə yetirilib.

Sonra tələbələrin ifasında "Soya qayıdış" adlı tamaşa göstərilib, şeirlər səsləndirilib.

Tədbirin sonunda mövzu ilə bağlı videoçarxlar nümayiş etdirilib.

# Tarix fakültəsinin şəhid məzunlarına həsr olunmuş tədbir keçirilib

***Martın 18-də Tarix fakültəsinin şəhid məzunlarına həsr olunmuş tədbir keçirilib.***

Tədbir Dövlət himninin səsləndirilməsi ilə başlayıb. Daha sonra Azərbaycanın ərazi bütövlüyü uğrunda canından keçən şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla anılıb.

Azərbaycan tarixi (təbiət elmləri üzrə) kafedrasının müdiri, dosent Mehman Abdullayev giriş sözü ilə çıxış edərək Qarabağ münaqişəsinin tarixi, Ermənistanın işğalçılıq siyasəti nəticəsində torpaqlarımızın 20 faizinin itirilməsi, 26 il davam edən atəşkəs və nəhayət, Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun 44 günlük Vətən müharibəsində şanlı qələbəsi haqqında danışıb.

Vətən müharibəsi iştirakçısı İsrayıl Əzimov müharibə xatirələrindən, döyüş yoldaşlarının qəhrəmanlıqlarından danışıb.



Tarix fakültəsinin I kurs tələbəsi Fatimə Minayıllı qeyd edib ki, Tarix fakültəsinin 3 məzunu Vətən müharibəsində qəhrəmancasına şəhid olub. Onların hər birinin şücaəti gənclərə örnəkdir.

Tarix fakültəsinin I kurs tələbəsi Rübabə Bağırova şəhid Elşən Salayev, II kurs tələbəsi Aygün Əlizadə şəhid Yüksəl Əlizadə, II kurs tələbəsi Fatimə Quliyeva şəhid Hüseyn Quliyevin həyatı, döyüş yolu ilə bağlı təqdimatlar ediblər.

Tarix fakültəsinin II kurs tələbələri Ehtiram Qurbanov və Nəbi Hüseynov şəhidlərimizə həsr etdikləri şeirlər səsləndiriblər. Daha sonra şəhidlərin xatirəsinə həsr olunmuş videoçarx nümayiş etdirilib.

# Şuşa qəhrəmanları ilə görüş

***Martın 14-də Kimya fakültəsinin Tələbə Gənclər Təşkilatının təşəbbüsü ilə "Şuşa ili"nə həsr olunmuş "Şuşa qəhrəmanları ilə görüş" adlı tədbir keçirilib.***

Tədbir Dövlət himninin səsləndirilməsi ilə başlayıb, sonra şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Kimya fakültəsinin dekanı Fuad Kərimli Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun 44 günlük Vətən müharibəsində şanlı Zəfərinin xalqımızın ürəyinə əbədi həkk olunduğunu vurğulayıb. "Şuşa ili" çərçivəsində keçirilən tədbirin gənclərin vətənpərvərlik tərbiyəsində mühüm rol oynadığını qeyd edən Fuad Kərimli bildirib ki, bu qəhrəmanlıq dastanının hər günü öyrənilməli, təbliğ olunmalıdır.



Tədbirdə Şuşa qəhrəmanları - Daxili Qoşunların ehtiyatda olan zabiti İsmayıl Hacıyev, Xüsusi Təyinatlı Qüvvələrin ehtiyatda olan zabitləri Şəmsəddin Qurbanov, Hüseynəli Hüseynəliyev, ən gənc Vətən Müharibəsi Qəhrəmanı Vüsal Yaqubov, həmçinin Cavid Həsənov, İsmət Əliyev, Elçin Fətullayev, Əhməd Mirzəyev döyüş yollarından və cəbhə xatirələrindən danışıblar.

Tədbirdə BDU-nun Humanitar məsələlər və gənclər siyasəti şöbəsinin müdiri Ramin Səmədov, Kimya fakültəsinin dekan müavini Taleh Qəhrəmanov, Kimyanın tədrisi metodikası kafedrasının müdiri Yasin Cəfərov, Beynəlxalq münasibətlər və iqtisadiyyat fakültəsinin müəllimi Əlimusa İbrahimov Vətən müharibəsi qəhrəmanlarının döyüş yollarının gənclər üçün nümunə olduğunu və onların xalqımızın milli-mənəvi dəyərinə çevrildiklərini vurğulayıblar.

Tədbirdə "Şuşa, sən azadsan" adlı sənədli film nümayiş etdirilib. Kimya fakültəsinin birinci kurs tələbəsi Elmira Mahmudova "Mən əsgər andını içib gəlmişəm" şeirini səsləndirib.

Şuşa qəhrəmanları tələbələrin suallarını cavablandırıblar. Daha sonra xatirə şəkilləri çəkilib.

# BDU-da 31 Mart – Azərbaycanlıların Soyqırımı Günü qeyd olunub

***Bakı Dövlət Universitetində 31 Mart - Azərbaycanlıların Soyqırımı Günü ilə əlaqədar anım tədbiri keçirilib.***

Əvvəlcə soyqırımı qurbanlarının əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Sonra Azərbaycan Dövlət Televiziyasının hazırladığı “31 Mart – Azərbaycanlıların Soyqırımı Günü” sənədli filmi nümayiş olunub.

Konfransda çıxış edən BDU-nun rektoru Elçin Babayev bildirib ki, Azərbaycan tarixinə faciəli səhifələrdən biri kimi daxil olan Mart soyqırımı təkcə xalqımıza yox, bütün bəşəriyyətə qarşı törədilən ən qəddar cinayətlərdəndir. 1918-ci ilin mart-aprel aylarında Bakı Sovetinin mandatı altında fəaliyyət göstərən daşnak-bolşevik silahlı dəstələrinin törətdiyi bu vandalizm aktlarında on minlərlə dinc sakin məhz etnik və dini mənsubiyyətinə görə xüsusi qəddarlıqla qətlə yetirilib. Yüzlərlə şəhər və kəndimiz, milli memarlıq incilərimiz, məktəblər, xəstəxanalar, məscid və digər abidələrimiz dağıdılıb, Bakının böyük bir hissəsi xarabalığa çevrilib. Mart qırğınlarında 50 mindən çox soydaşımız, o cümlədən Bakıda 30 minə yaxın azərbaycanlı qətlə yetirilib. Təkcə Zəngəzurda 115, İrəvan quberniyasında isə 211 kənd dağıdılıb, əhalisi misli görünməmiş amansızlıqla öldürülüb.




Rektor qeyd edib ki, bu dəhşətli soyqırım aktına yalnız Azərbaycan öz müstəqilliyini bərpa etdikdən sonra, Ümummilli Lider Heydər Əliyev tərəfindən siyasi-hüquqi qiymət verilib. Ulu Öndərin 1998-ci il martın 26-da imzaladığı “Azərbaycanlıların soyqırımı haqqında” fərmanda həmin dəhşətli hadisələrə adekvat siyasi qiymət verilib, 31 mart “Azərbaycanlıların Soyqırımı Günü” elan edilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təşəbbüsü ilə 1918-ci il soyqırımı ilə bağlı genişmiqyaslı araşdırmalar aparılıb. Quba şəhərində azərbaycanlıların kütləvi məzarlığı aşkar olunub, erməni millətçiləri tərəfindən törədilmiş cinayətlərə dair yeni faktlar üzə çıxarılıb. 2013-cü ildə Quba şəhərində Soyqırımı Memorial Kompleksi açılıb. Azərbaycan Prezidenti İlham Əliyev 18 yanvar 2018-ci ildə “1918-ci il azərbaycanlıların soyqırımının 100 illiyi haqqında” sərəncam imzalayıb. Ölkə rəhbərliyinin gördüyü tədbirlər 1918-ci ildə erməni silahlı birləşmələri tərəfindən xüsusi amansızlıqla törədilmiş cinayətlər barədə həqiqətlərin ölkə və dünya ictimaiyyətinə daha dolğun şəkildə çatdırılmasında əvəzsiz rol oynayıb.

BDU-nun rektoru Müzəffər Ali Baş Komandanın rəhbərliyi altında rəşadətli ordumuzun 2020-ci ildə həyata keçirdiyi “Dəmir yumruq” əməliyyatının dünya və region üçün təhlükəyə çevrilmiş erməni faşizmini 44 günə darmadağın etdiyini, soydaşlarımızın vəhşicəsinə qətlə yetirilməsində bilavasitə iştirak edən erməni cəlladlarına layiqli cavab verildiyini və qisasımızın döyüş meydanlarında alındığını vurğulayıb: “İndi ölkəmiz üçün yeni dövr başlayıb - quruculuq dövrü. Bu istiqamətdə də biz bütün gücümüzü səfərbər edib, ermənilər tərəfindən dağıdılmış və viran qoyulmuş bütün mədəni və tarixi abidələrimizi bərpa edirik. Bu hadisələrin unudulmaması və tarixi həqiqətlərin araşdırılması, gənc nəsillərə çatdırılması hər kəsin vətəndaşlıq borcudur”.

Daha sonra Milli Məclisin üzvü Arzu Nağıyev, Türkiyənin Azərbaycandakı səfirliyinin mətbuat müşaviri Hüseyn Altınalan, BDU-nun Qafqaz xalqları tarixi kafedrasının professoru Qabil Əliyev, BDU-nun Beynəlxalq münasibətlər və iqtisadiyyat fakültəsinin müəllimi Ülkər İmaməliyeva, Tarix fakültəsinin doktorantı Nərgiz Kərimova çıxış edərək, ermənilərin 1918-ci ilin mart ayında azərbaycanlılara qarşı törətdikləri vəhşiliklərdən söz açıb, bu faciənin yaddaşlardan heç zaman silinməyəcəyini bildiriblər. Çıxışlarda erməni faşizmi, azərbaycanlılara qarşı törədilən terror aktları ilə bağlı məlumatların davamlı olaraq gənc nəslə və beynəlxalq ictimaiyyətə çatdırılmasının zəruriliyi qeyd olunub.

# Azərbaycanlıların Soyqırımı Gününə həsr olunmuş Beynəlxalq elmi konfrans

***Martın 30-da Jurnalistika fakültəsinin təşkilatçılığı ilə "31 Mart soyqırımı: tarix və gerçəklik" mövzusunda Beynəlxalq elmi konfrans keçirilib. Onlayn formada keçirilən konfransda BDU-nun Jurnalistika fakültəsinin professor-müəllim heyəti və tələbələr, Azərbaycanla yanaşı, Türkiyə, İraq və Rusiyadan olan alimlər iştirak ediblər.***

Konfransın moderatoru Jurnalistika fakültəsinin dekanı Vüqar Əliyev 1918-ci il Mart qırğınları barədə ətraflı məlumat verərək, soyqırım aktı haqqında həqiqətlərin, tarixi gerçəklərin, erməni millətçilərinin tarix boyu azərbaycanlılara qarşı apardığı etnik təmizləmə, qəsbkarlıq siyasətinin dünya ictimaiyyətinə çatdırılmasının aktual və vacib məsələ olduğunu bildirib. Qeyd edib ki, bu beynəlxalq elmi konfransın əsas məqsədi erməni qəsbkarlarının azərbaycanlılara qarşı törətdiyi soyqırım barədə həqiqətlərin beynəlxalq arenada daha geniş yayılmasıdır.

BDU-nun Sosial məsələlər, tələbələrlə iş və ictimaiyyətlə əlaqələr üzrə prorektoru Əliş Ağamirzəyev çıxışında Mart soyqırımının Azərbaycan xalqının başına gətirilən ən dəhşətli faciələrdən biri olduğunu bildirərək, bu vandalizm aktlarında on minlərlə dinc sakinin məhz etnik və dini mənsubiyyətinə görə xüsusi qəddarlıqla qətlə yetirildiyinə diqqət çəkib. Qeyd edib ki, soyqırımın qəddar təşkilatçıları məsələnin mahiyyətinin açılmasının, ona hüquqi-siyasi qiymət verilməsinin uzun illər qarşısını almağa çalışıb, özlərinin qəsbkar torpaq iddialarını davam etdiriblər. 1918-ci il mart qırğınlarına yalnız Azərbaycan öz müstəqilliyini yenidən bərpa etdikdən sonra, Ümummilli Lider Heydər Əliyev tərəfindən siyasi-hüquqi qiymət verilib. Ulu Öndərin 1998-ci il martın 26-da imzaladığı "Azərbaycanlıların soyqırımı haqqında" Fərmanda həmin dəhşətli hadisələrə adekvat siyasi qiymət verilib, 31 mart "Azərbaycanlıların Soyqırımı Günü" elan edilib. Azərbaycan Respublikası Prezidentinin təşəbbüsü ilə 1918-ci il soyqırımı ilə bağlı genişmiqyaslı araşdırmalar aparılıb. Ölkə rəhbərliyinin gördüyü tədbirlər 1918-ci ilin mart qırğınları barədə həqiqətlərin ölkə və dünya ictimaiyyətinə daha dolğun şəkildə çatdırılmasında əvəzsiz rol oynayıb.

Dünya Jurnalistlər Dərnəyinin sədri Şəmsəddin Kuzəci çıxışında erməni terrorçularının beynəlxalq səviyyədə törətdiyi vəhşiliklərdən, xüsusilə Kərkük türklərinə qarşı yönəlmiş Altınkörpü qətliamından geniş bəhs edib.

BDU Jurnalistika fakültəsinin Milli mətbuat tarixi kafedrasının müdiri Cahangir Məmmədli çıxışında azərbaycanlıların soyqırımı ilə bağlı ədəbi əsərlərin təbliğinin və tədrisə cəlb olunmasının vacibliyini vurğulayıb. Bildirib ki, işğaldan azad olunmuş bölgələrə səfər etdikcə soyqırımın təkcə insanlara deyil, Azərbaycanın tarixi abidələrinə, mədəniyyət nümunələrinə qarşı da törədildiyini açıq-aydın görmək olur.

Atatürk Universitetinin professoru Esin Derinsu Dayı "İşğaldan qurtuluşa: Qars və çevrəsində erməni vəhşiliyi və türk soyqırımı" adlı məruzə ilə çıxış edib. Natiq 1914-1920-ci illər arasında işğal faktı, Qars və ətrafında baş verən erməni vəhşiliklərindən bəhs edib.

Konfransda çıxış edən Multimedia və elektron kommunikasiya kafedrasının professoru Qulu Məhərrəmli 31 Mart soyqırımı ilə bağlı müxtəlif dillərdə sənədli filmlərin çəkilməsi və beynəlxalq ictimaiyyətə çatdırılmasının önəmindən bəhs edib.

Aydın Adnan Menderes Universiteti Jurnalistika fakültəsinin dekanı Turan Akkoyun "Azərbaycanda soyqırım gününün təbliğatı" adlı çıxışında ötən yüzillikdə yaşanan soyqırıma sosial elmlər aspektindən yanaşaraq, tarixi faktları akademik baxımdan dəyərləndirib.

Konfransda həmçinin Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Siyasi idarəetmə fakültəsinin dekanı Elçin Əhmədov, Türkiyənin "Yazar" qəzetinin redaktoru Sərvət Avşar, BDU Jurnalistika fakültəsinin Multimedia və elektron kommunikasiya kafedrasının müdiri Allahverdi Məmmədlinin çıxışları dinlənilib.

# "1918-ci il mart soyqırımının tarixşünaslığı" mövzusunda elmi seminar

***Martın 15-də Tarix fakültəsində 27 mart - Azərbaycan Respublikasında "Elm günü" ilə bağlı silsilə tədbirlər çərçivəsində "1918-ci il mart soyqırımının tarixşünaslığı" mövzusunda elmi seminar keçirilib.***

Tarix fakültəsinin dekanı İbrahim Zeynalov Azərbaycan xalqının ən faciəli günlərindən olan 1918-ci ilin mart soyqırımı haqqında qısa məlumat verib. O qeyd edib ki, bu tip elmi tədbirlərin əsas məqsədi Azərbaycan tarixini daha dərindən araşdırmaq, gənc tədqiqatçıların, magistrantların elmi fəaliyyətini stimullaşdırmaq, fakültənin tanınmış alimlərinin son elmi tədqiqatlarının tədrisi təcrübəsini yaymaqdır.

Elmi seminarda Milli Məclisin deputatı, Tarix fakültəsinin Mənbəşünaslıq, tarixşünaslıq və metodika kafedrasının müdiri, tarix elmləri doktoru, professor Anar İsgəndərov eyniadlı məruzə ilə çıxış edib.

Mart soyqırımına dair nadir arxiv sənədləri və mənbələrə istinad edən Anar İsgəndərov bildirib ki, 1918-ci ildə Bakıda, Şamaxı, Quba qəzalarında, Qərbi Azərbaycan və Cənubi Azərbaycanda türk-müsəlman əhalisinə qarşı erməni hərbi birləşmələri tərəfindən soyqırım həyata keçirilib. Minlərlə azərbaycanlı vəhşicəsinə qətlə yetirilib. Təəssüf ki, Azərbaycanın milli-demokratik ziyalıları bu qırğını iki xalq arasında məişət münaqişəsi kimi dəyərləndiriblər. Halbuki bu, ermənilərin "Böyük Ermənistan" planını həyata keçirmək üçün türk-müsəlman əhalisinə qarşı törətdikləri məqsədli soyqırımı idi.

Professor Anar İsgəndərov məruzəsində erməni cəmiyyətində əsrlərdir kök salmış türk düşmənçiliyi məsələsinin tarixi köklərinə də diqqət çəkib. Fövqəladə Təhqiqat Komissiyasının nadir sənədlərinə istinad edərək, müqayisəli təhlil əsasında 1905-1906-cı illər, 1918-ci ilin mart, 1992-ci ilin Xocalı soyqırımlarının səbəb və nəticələri haqqında ətraflı məlumat verib.

# "Müharibənin əsas cəbhəsi - diplomatiya" mövzusunda dəyirmi masa

***Martın 9-da Şərqşünaslıq fakültəsinin Tələbə Elmi Cəmiyyətinin və Beynəlxalq münasibətlər və İqtisadiyyat fakültəsinin təşkilatçılığı ilə "Müharibənin əsas cəbhəsi - diplomatiya" mövzusunda dəyirmi masa keçirilib.***

Dəyirmi masa Dövlət himninin səsləndirilməsi ilə başlayıb.

Şərqşünaslıq fakültəsinin dekanı, dosent Aydan Xəndan münaqişələrin həllində diplomatiya sahəsinin mühüm əhəmiyyət kəsb etdiyini bildirib. O qeyd edib ki, 44 günlük Vətən müharibəsində məhz Prezident, Ali Baş Komandan İlham Əliyevin qətiyyətli və prinsipial mövqeyi hərb meydanında olduğu kimi, diplomatiya meydanında və informasiya savaşında da uğurlarımızı şərtləndirdi. Vətən müharibəsinin 44 günü ərzində dövlətimiz beynəlxalq hüquq prinsiplərini rəhbər tutub, öz ərazilərini azad etmək hüququndan istifadə edərək uğurlu və genişmiqyaslı əks-hücum əməliyyatları həyata keçirdi. Müharibənin gedişində bir sıra aparıcı beynəlxalq KİV-lərə müsahibələrində Prezident İlham Əliyevin prinsipial mövqeyi, səsləndirdiyi tutarlı dəlillər və əsaslı fikirlər Azərbaycanın bu haqlı mübarizəsinə dəstək verən bir sıra ölkələrin, nüfuzlu xadimlərin, beynəlxalq ekspert və siyasətçilərin sayını daha da artırdı, Ermənistanın təcavüzkar siyasətinin ifşa olunması prosesini genişləndirərək, informasiya müharibəsində də tarixi ədalətin Zəfər çaldığını göstərdi.

Şərqşünaslıq fakültəsinin Tələbə Elmi Cəmiyyətinin elmi rəhbəri, dosent Heybət Heybətov dəyirmi masanın mövzusu ilə bağlı çıxış edib, aparılan fikir mübadiləsini yüksək qiymətləndirib.

Şərqşünaslıq fakültəsinin elmi işlər üzrə dekan müavini, dosent Nigar İsmayılzadə BDU-nun digər fakültələri ilə birgə elmi seminar və dəyirmi masaların keçirilməsinin əhəmiyyətini qeyd edib.

Beynəlxalq münasibətlər və iqtisadiyyat fakültəsinin Beynəlxalq münasibətlər kafedrasının müəllimi, siyasi elmlər üzrə fəlsəfə doktoru Eldar Cəfərov məruzəsində Azərbaycanın 44 günlük Vətən müharibəsində qazandığı diplomatik uğurları haqqında danışıb. O qeyd edib ki, qələbəni səciyyələndirən hərbi əməliyyatlarla yanaşı, xarici diplomatik həmlələrdir. Prezident İlham Əliyev xarici siyasətdə peşəkar gedişləri ilə Azərbaycanı qalib ölkəyə çevirib.

Beynəlxalq münasibətlər və İqtisadiyyat fakültəsinin II kurs tələbəsi Nigar Allahverdiyeva tarix boyu diplomatik yolla həll olunmuş müharibələr, məşhur diplomatlar haqqında təqdimatla çıxış edib.

Şərqşünaslıq fakültəsinin Regionşünaslıq (Ərəb ölkələri üzrə) ixtisasının IV kurs tələbəsi Nərmin Nuriyeva çıxışında Şərq ölkələrinin Azərbaycana diplomatik dəstəyi barədə məlumat verib.

# AIESEC təşkilatının təcrübə proqramları haqqında məlumatlandırıcı tədbir

***Martın 11-də Bakı Dövlət Universitetində AIESEC təşkilatının və BDU Könüllülərinin birgə təşkilatçılığı ilə təcrübə proqramları haqqında məlumatlandırıcı tədbir keçirilib.***

Tədbirdə təşkilatın yaranma tarixi, inkişaf yolu, xaricdəki könüllü və maaşlı təcrübə proqramlarında iştirak etmək üçün qeydiyyat prosedurları haqqında ətraflı məlumat verilib.

Qeyd olunub ki, dünyanın 126-dan çox ölkəsində fəaliyyət göstərən beynəlxalq gənclər təşkilatı olan AIESEC-in əsas məqsədi gənclərin liderlik potensialını aşkara çıxarmaq, onların inkişafına töhfə verməkdir. Yarandığı gündən 1 milyondan çox gəncin şəxsi inkişafına səbəb olan təşkilat müxtəlif proqramlar vasitəsilə gənclərə beynəlxalq təcrübə keçmək şansı yaradıb.

Tədbir tələbələri maraqlandıran sualların cavablandırılması ilə davam edib.

Qeyd edək ki, AIESEC təşkilatı Azərbaycanda 2006-cı ildən fəaliyyət göstərir. Hazırda "AIESEC Azərbaycan" təşkilatının ölkəmizdə 200-dən artıq aktiv üzvü var.



# BDU-da "istehlakçı cəmiyyət"dən "yaşıl iqtisadiyyat"a keçidlə bağlı müzakirə aparılıb



***Martın 15-də Ekologiya və torpaqşünaslıq fakültəsində 27 Mart - Azərbaycan Respublikasında "Elm günü"nə həsr olunmuş tədbirlər çərçivəsində onlayn formatda elmi seminar keçirilib.***

Seminarda Ekologiya və torpaqşünaslıq fakültəsinin professor-müəllim heyəti, doktorant və tələbələr iştirak edib.

Seminarda Torpaqşünaslıq və daşınmaz əmlakın kadastrı kafedrasının dosenti Azər Cəfərov "Dövrümüzün paradiqması "istehlakçı cəmiyyət"dən "yaşıl iqtisadiyyat"a keçid: Azərbaycanın yeri və rolu", Ekoloji kimya kafedrasının magistrantı Bəsti Quliyeva "Ağdam rayonunun (Quzanlı qəsəbəsi ətrafında) təbii su mənbələrinin müasir vəziyyətinin ekoloji qiymətləndirilməsi" mövzularında çıxış ediblər.

Bəsti Quliyeva isə məruzəsində Ağdam rayonunun coğrafi mövqeyi, təbii su ehtiyatlarının vəziyyəti, Quzanlı qəsəbəsi ətrafındakı su mənbələrindən götürülmüş su nümunələrinin kimyəvi tərkibinin analizinin nəticələri və su mənbələrinin müasir vəziyyətinin ekoloji qiymətləndirilməsi barədə danışıb. Elmi məruzədə ilk dəfə olaraq Ağdam rayonunun (Quzanlı qəsəbəsi ətrafında) ərazisindən götürülmüş təbii su (artezian quyu suları və bulaq suları) nümunələrində ağır metalların miqdarı, fiziki-kimyəvi parametrlərin su nümunələrində yol verilən miqdarı ilə analiz nəticəsində əldə olunan miqdarının müqayisəli təhlili təqdim olunub.

Qeyd olunub ki, Quzanlı ərazisindən götürülmüş təbii su nümunələrində fenol və polisiklik aromatik karbohidrogenlər aşkar olunmayıb, lakin radioaktiv elementlərin və ağır metalların miqdarı yol verilən qatılıq həddini keçir.

Elmi seminar mövzularla bağlı diskussiya ilə davam edib.

# "Keçmişdən gələcəyə: Türkiyə - Azərbaycan münasibətləri" mövzusunda dəyirmi masa

***Martın 30-da Beynəlxalq münasibətlər və iqtisadiyyat fakültəsinin Politologiya və sosiologiya kafedrasının İstanbul Aydın Universiteti və Bursa Uludağ Universitetinin Beynəlxalq münasibətlər bölümü, Siyasi tarix kafedrası və Diplomatiya Araşdırmaları Dərnəyinin birgə təşkilatçılığı ilə "Keçmişdən gələcəyə: Türkiyə - Azərbaycan münasibətləri" mövzusunda dəyirmi masa keçirilib. Görüş onlayn formatda "Microsoft Teams" proqramı üzərindən təşkil olunub.***

Kafedranın dosenti Nazim İbadov elmi seminarı açıq elan edərək bildirib ki, bütün dünyaya nümunə olan, daim güclənən Azərbaycan və Türkiyə münasibətləri dayanmadan inkişaf edir, əməkdaşlığın yüksək səviyyəsi hərtərəfli əlaqələrin gücündən və sarsılmazlığından xəbər verir.

Milli Məclisin üzvü, professor Hikmət Babaoğlu Türkiyə - Azərbaycan qardaşlıq və dostluq münasibətlərinin tarixi və onu şərtləndirən amillərdən söz açıb. Məruzəçi 44 günlük Vətən müharibəsində qardaş Türkiyənin mənəvi və siyasi dəstəyi ilə böyük tarixi zəfər əldə etdiyimizi vurğulayıb. O, Şuşa bəyannaməsinin hüquqi, siyasi aspektlərini təhlil edərək, Türkiyə və Azərbaycanı multipolyar qütblər kimi dəyərləndirib.

İstanbul Aydın Universitetinin professoru Ragip Kutay Karaca II Dünya müharibəsindən sonra birqütblü dünyanın yeritdiyi siyasət, soyuq müharibədən sonra dünya düzəninin dəyişməsi, müasir dünyadakı mövcud güc mərkəzləri barədə məlumat verib. Beynəlxalq nüfuzun dövlətlərimizin gücündən asılı olduğunu vurğulayan məruzəçi Qarabağ zəfərini bu amillə əlaqələndirib. Ragip Kutay Karaca Şuşa bəyannaməsinin böyük strateji əhəmiyyət daşıdığını qeyd edib.

Bursa Uludağ Universitetinin professoru Barış Özdal Şuşa Bəyannaməsinin nəticələri, dövlətlərarası münasibətlərdə mənəvi amillərin rolundan bəhs edib.

# "Plastik qablaşdırma tullantılarının ətraf mühitə mənfi təsiri" mövzusunda təlim

***Martın 30-da Ekologiya və torpaqşünaslıq fakültəsi üzrə BDU könüllüləri və Milli QHT Forumu Könüllülər Birliyinin təşkilatçılığı ilə "Plastik qablaşdırma tullantılarının ətraf mühitə mənfi təsiri" mövzusunda təlim keçirilib.***

Təlimdə Ekologiya və torpaqşünaslıq fakültəsinin dekan müavini Könül Aslanova, BDU könüllülərinin Ekologiya və torpaqşünaslıq fakültəsi üzrə sədri Leyla İmaməliyeva, Milli QHT Forumu Könüllülər Birliyinin sədri Hatəm Həzizadə və təlimçi qismində birliyin koordinatoru Hüsniyyə Necati iştirak ediblər.

Tədbirdə plastik tullantıların təbiətə və sağlamlığa vurduğu zərər haqqında danışılıb, Plastik maddələrin kimyəvi təsirləri, istehsalı, yenidən emalı barədə məsələlər müzakirə olunub. Çıxışlarda plastik tullantıların ətraf mühitə mənfi təsirinin qarşısının alınması üçün dövlət tərəfindən məqsədyönlü siyasət aparıldığı qeyd olunub.

Daha sonra Hüsniyyə Necati tələbələrin suallarını cavablandırıb.

# BDU-da bədii qiraət ustası Ağalar Bayramovla görüş



***Martın 3-də Bakı Dövlət Universitetinin və "ASAN Könüllüləri" Təşkilatının "Mədəniyyət carçısı" proqramının birgə təşkilatçılığı ilə Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin dosenti, Respublikanın əməkdar artisti, bədii qiraət ustası Ağalar Bayramovla görüş keçirilib.***

Görüşdə iştirak edən Ağalar Bayramov yeniyetmə və gənclərin tərbiyəsində milli-mənəvi dəyərlərin rolunun böyük olduğunu, bu dəyərlərin qorunub saxlanılması və gələcək nəsillərə çatdırılmasının vacibliyini vurğulayıb.

Görüşdə Azərbaycan incəsənətinə göstərilən diqqət və qayğıdan söz açılıb, gənclərin milli ruhda formalaşması istiqamətində ölkədə həyata keçirilən layihələrdən bəhs olunub. Görüşdə "Qibləgahım poeziya" mövzusunda müzakirələr aparılıb və tələbələrin sualları cavablandırılıb.

# Xalq artisti Vamiq Məmmədəliyevlə görüş



***Martın 5-də Bakı Dövlət Universiteti və "ASAN Könüllüləri" Təşkilatının "Mədəniyyət carçısı" proqramının birgə təşkilatçılığı ilə Azərbaycanın görkəmli tarzəni, professor, xalq artisti Vamiq Məmmədəliyevin tələbələrlə görüşü keçirilib.***

"Havalansın tarın səsi" mövzusunda keçirilən görüşdə Vamiq Məmmədəliyev tələbələrlə tarzən sənətinin incəlikləri barədə müzakirələr aparıb.

O, dövlət səviyyəsində incəsənət sahəsinə göstərilən diqqət və qayğıdan danışıb, Azərbaycan mədəniyyətində özünəməxsus yer tutan tar alətinin tarixindən bəhs edib.

Sonda tələbələrin mövzu ətrafında sualları cavablandırılıb.

# İqtisadiyyat və Humanitar Kollecdə "Bəşəriyyət qadınla yüksələcək" adlı tədbir

***Martın 5-də Bakı Dövlət Universitetinin nəzdində İqtisadiyyat və Humanitar Kollecdə 8 Mart -Beynəlxalq Qadınlar Günü münasibətilə "Bəşəriyyət qadınla yüksələcək" adlı tədbir keçirilib.***

Kollecin direktoru, professor Səhər Orucova Azərbaycan qadınının tarix boyu öz mübarizliyi ilə tanındığını, Vətənin müdafiəsində daim fədakarlıq nümayiş etdirdiyini qeyd edib. O vurğulayıb ki, Azərbaycanda qadın hüquqlarının qorunması, təbliğ olunması, onlara yüksək imtiyazların verilməsi, qadınların dövlət siyasətinin həyata keçirilməsində və qanunların qəbul edilməsində iştirakının artırılması Ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Bu siyasəti yüksək səviyyədə davam etdirən Prezident İlham Əliyev dövlət qadın siyasətinin daha böyük nailiyyətlərlə icrasını təmin edib. Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın rəhbərliyi ilə bu və ya digər sahələrdə böyük layihələrin uğurla icrası da qadınlar üçün stimul və nümunədir.

Kollecin müəllimi Aynurə Qurban, Həmkarlar Komitəsinin sədri Tamara Rüstəmova Azərbaycan tarixində ilklərə imza atan, eləcə də Vətən uğrunda canından keçən şəhid qadın qəhrəmanlarımız barədə danışıb. Tədbir bədii hissə ilə davam edib.

# Türkiyənin məşhur aktyoru Erhan Ufak BDU-da



***Martın 14-də Bakı Dövlət Universitetində "ASAN Könüllüləri" Təşkilatı və BDU Tələbə Gənclər Təşkilatının birgə təşkilatçılığı ilə Türkiyənin məşhur aktyoru, "Kurtlar vadisi" serialında "Güllü Erhan" obrazı ilə sevilən Erhan Ufakla tələbələrin görüşü keçirilib.***

Görüşdə öz sənət yolundan bəhs edən aktyor 15 ildən artıq davam edən və Azərbaycanda kifayət qədər sevilən "Kurtlar vadisi" serialındakı rolundan danışıb.

Azərbaycanda bir sıra yeni layihələrə başladığını qeyd edən Erhan Ufak özünü doğma ölkəsində hiss etdiyini, BDU tələbələri və könüllüləri ilə görüşdən məmnun olduğunu qeyd edib.

Görüş tələbələrin suallarının cavablandırılması ilə yekunlaşıb.

# Alimlərimiz beynəlxalq qrant müsabiqəsində qalib gəliblər

Kimya fakültəsinin əməkdaşları Azərbaycan Milli Elmlər Akademiyası (AMEA) və Türkiyə Elmi və Texnoloji Tədqiqat Şurası (TÜBİTAK) tərəfindən elan edilmiş 3-cü layihə müsabiqəsinin qalibi olublar.

Layihə müsabiqəsi çərçivəsində Azərbaycan və Türkiyənin elm, təhsil və səhiyyə müəssisələrinin alim və mütəxəssisləri tərəfindən təqdim edilmiş və ilkin ekspertizadan uğurla keçmiş 48 layihə üzrə elmi ekspertiza aparılıb.

Hər bir layihə həm AMEA, həm də TÜBİTAK tərəfindən 2 rəyçiyə göndərilib və ümumilikdə 4 müstəqil ekspert tərəfindən qiymətləndirilib. Ekspertizanın nəticələrinə əsasən, AMEA-dan 2, BDU-dan isə 1 layihə yüksək nəticələrlə qalib seçilib. BDU-nun Kimya fakültəsinin əməkdaşları - layihə rəhbəri professor İbrahim Məmmədov, professor Xəmməd Əsədov və dosent Farid Nağıyevin təqdim etdiyi "Çoxəvəzli heterotsiklik karkasların yaradılmasında üzvi kataliz" layihəsi qalib olub.

Layihə çərçivəsində tibbi əhəmiyyət daşıyan çoxəvəzli karkas quruluşlu heterotsiklik birləşmələrin üzvi kataliz iştirakında sintezi, reaksiya mexanizmlərinin Nüvə Maqnit Rezonansı, Rentgen Quruluş Analizi metodları ilə öyrəniləcək, eləcə də maddələrin tətbiq imkanları araşdırılacaq. Proses zamanı alınan enantiomer qarışıqların üzvi kataliz iştirakında selektiv sintezi həyata keçiriləcək. Layihə BDU ilə Türkiyənin nüfuzlu Bilkənt Universitetinin alimlərinin iştirakı ilə birgə yerinə yetiriləcək. Araşdırmalardan alınan nəticələrin dünyanın nüfuzlu impakt faktorlu jurnallarında çapı və beynəlxalq konfranslarda təqdimatı nəzərdə tutulub.

Əməkdaşlarımızı təbrik edir və onlara elmi araşdırmalarında uğurlar arzulayırıq.

# "İnsan alveri ilə mübarizə" mövzusunda təlim

Hüquq fakültəsinin Tələbə Gənclər Təşkilatı və Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Hüquq Klubunun birgə təşkilatçılığı ilə "İnsan alveri ilə mübarizə" mövzusunda təlim keçirilib.

Təlimçi qismində vəkil Aytən Əliyeva çıxış edib. O, ilk növbədə insan alveri cinayətlərinin milli qanunvericilikdə və beynəlxalq sənədlərdə necə əks olunduğuna aydınlıq gətirib.

Təlimdə insan alverinin insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, adam oğurluğu, insan qaçaqmalçılığı ilə fərqi tələbələrin iştirakı ilə dəqiqləşdirilib. İnsan alveri qurbanlarının tora salınma üsulları, insan alverçilərinin faydalandığı faktorlardan danışan təlimçi mövzu ilə bağlı statistik məlumatları da tədbir iştirakçılarının diqqətinə çatdırıb.

# Qəbələnin turist xəritələri hazırlanıb

***Martın 17-də Ekologiya və torpaqşünaslıq fakültəsinin dekanı dosent Akif Ağbabalının layihə rəhbərliyi ilə Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Geodeziya və Kartoqrafiya MMC-də ilk dəfə ekoturizm konsepsiyası əsasında "Qəbələ rayonunun və Qəbələ şəhərinin turist xəritələri" ingilis dilində böyük tirajla nəşr edilib.***

Xəritələrdə turistlər üçün ən zəruri mədəni, tarixi, sosial və digər obyektlər üzrə informasiyalar toplanıb.

SEBA (Seul-Bakı) Azərbaycan-Koreya Mədəniyyət Mübadiləsi Assosiasiyası İctimai Birliyi və Qəbələ Rayon İcra Hakimiyyəti ilə əməkdaşlıq çərçivəsində hazırlanan xəritələrdən ekologiya, turizm və otelçilik, coğrafiya və s. ixtisaslarda təhsil alan ali məktəb tələbələri də istifadə edə bilərlər.



# Milli Teatr Gününə həsr olunmuş tədbir keçirilib

*Bakı Dövlət Universitetində Kitabxanaçılıq-informasiya fakültəsinin və Elmi Kitabxananın birgə təşkilatçılığı ilə 10 Mart - Milli Teatr Gününə həsr olunmuş tədbir keçirilib.*



BDU-nun Humanitar məsələlər və gənclər siyasəti şöbəsinin müdiri Ramin Səmədov tədbiri açaraq Milli Teatr Gününün əhəmiyyəti, eyni zamanda Azərbaycan mədəniyyətinə, teatr sənətinə dövlət tərəfindən göstərilən diqqət və qayğıdan bəhs edib.

Tədbirdə görkəmli aktyor, Xalq artisti Nurəddin Mehdixanlı "Azərbaycan teatrı: dünəni, bu günü və gələcəyi" mövzusunda məruzə edib. Azərbaycanda teatr sənətinin tarixinin qədim dövrlərdən, xalq oyunları və meydan tamaşalarından, ozan sənətindən başladığını vurğulayan Nurəddin Mehdixanlı ölkəmizdə peşəkar teatrın keçdiyi inkişaf yolu, formalaşması barədə geniş məlumat verib. 44 günlük Vətən müharibəsində qazandığımız tarixi qələbənin teatr sənətimizə böyük töhfələr verəcəyini vurğulayan natiq bildirib ki, bu mövzuda yeni səhnə əsərləri, obrazlar və xarakterlər yaranacaq.

Məruzə böyük maraqla dinlənilib, Nurəddin Mehdixanlı tələbələrin çoxsaylı suallarını cavablandırıb.

BDU-nun Kitabşünaslıq və nəşriyyat işi kafedrasının müdiri Knyaz Aslan, Elmi Kitabxananın direktoru Nigar İsmayılova məruzə ilə bağlı çıxışlarında Xalq artisti Nurəddin Mehdixanlının ölkəmizdə teatr və kino sənətinin inkişafındakı rolundan bəhs ediblər. Tədbirin sonunda Elmi Kitabxana tərəfindən təşkil olunmuş milli teatr sənətimizin tarixini əks etdirən kitabların sərgisinə baxış keçirilib.

***

*Martın 10-da Tarix fakültəsi və Tələbə Həmkarlar İttifaqı Komitəsinin təşkilatçılığı ilə 10 mart - Milli Teatr Gününə həsr olunmuş "Dünənki və bugünkü teatr gənclərin gözü ilə" adlı tədbir keçirilib.*

Tədbirdə təlimçi qismində Azərbaycan Dövlət Pantomima Teatrının aktyoru, Əməkdar artist Elman Rəfiyev iştirak edib. Aktyor Azərbaycanda milli teatrın əsasının qoyulması, teatr sahəsində son dövrlərdə həyata keçirilən islahatlardan bəhs edib. O, teatrın insanın şəxsiyyət kimi formalaşmasında böyük rola malik olduğunu deyib və gənclərin teatra marağının artırılmasının vacibliyini vurğulayıb.

Daha sonra Elman Rəfiyev tələbələrin suallarını cavablandırıb.

Tədbirin sonunda aktyor özünün səsləndirdiyi 64 şeirdən ibarət CD-lərini tələbələrə təqdim edib.

# Ümumdünya Yazıçıları Günü



*Kitabxanaçılıq-informasiya, Şərqşünaslıq fakültələri və Dünya Gənc Türk Yazarlar Birliyinin birgə təşkilatçılığı ilə 3 Mart - Ümumdünya Yazıçıları Gününə həsr olunmuş tədbir keçirilib.*

BDU-nun Humanitar məsələlər və gənclər siyasəti şöbəsinin müdiri Ramin Səmədov tədbiri giriş sözü ilə açaraq Ümumdünya Yazıçıları Gününün tarixi və əhəmiyyəti barədə məlumat verib. Ümummilli Liderimiz Heydər Əliyevin şair və yazıçılara xüsusi diqqət və qayğısından bəhs edən natiq bildirib ki, bu siyasət Prezident İlham Əliyev tərəfindən bütün sahələrdə olduğu kimi, mədəniyyət sahəsində də uğurla davam etdirilir. 44 günlük Vətən müharibəsində qazandığımız tarixi qələbənin ədəbiyyatımıza böyük təsir göstərdiyini vurğulayan Ramin Səmədov bildirib ki, şair və yazıçılarımız Zəfərimiz haqqında yeni əsərlər, qəhrəmanlıq dastanları yaradacaqlar. Ötən il azad Şuşada Vaqif Poeziya Günlərinin bərpasının tarixi əhəmiyyətini, bu sənət bayramının çağdaş ədəbiyyatımıza yeni töhfələr, istiqamətlər verdiyini qeyd edən natiq tədbirin işinə uğurlar arzulayıb.

Tədbirdə BDU-nun Şərqşünaslıq fakültəsinin dekanı Aydan Xəndan "Çağdaş türk poeziyası", Kitabxanaçılıq-informasiya fakültəsinin dekanı Ələmdar Cabbarlı "Qarabağ ədəbi mühiti", Kitabşünaslıq və nəşriyyat işi kafedrasının müdiri Knyaz Aslan "Azərbaycan ədəbiyyatı klassiklərinin irsində mütaliə", Dünya Gənc Türk Yazarlar Birliyinin başqanı İntiqam Yaşar "Dünya Gənc Türk Yazarlar Birliyinin Azərbaycan ədəbi mühitində yeri" mövzularında məruzə ediblər.

Tədbir Kitabxanaçılıq-informasiya və Şərqşünaslıq fakültələrinin tələbələrinin ifasında şeir və musiqi nömrələrinin səsləndirilməsi ilə davam etdirilib.

# BDU-da Beynəlxalq Riyaziyyat Günü qeyd olunub

*Martın 15-də Mexanika-riyaziyyat fakültəsi və BDU könüllülərinin birgə təşkilatçılığı ilə 14 mart - Beynəlxalq Riyaziyyat Gününə həsr olunmuş tədbir keçirilib.*



Mexanika-riyaziyyat fakültəsinin dekan müavini Etibar Əhmədov bu günün tarixi ilə bağlı danışıb. Qeyd edib ki, UNESCO Baş Assambleyasının 2019-cu il noyabrın 26-da Fransanın paytaxtı Parisdə keçirilən 40-cı sessiyasında hər il martın 14-də Beynəlxalq Riyaziyyat Gününün qeyd olunması barədə qərar qəbul edilib.

Daha sonra fakültənin könüllüləri "Riyaziyyatın həyatımızdakı əhəmiyyəti" və "Beynəlxalq Riyaziyyat Günü" mövzularında hazırladıqları videoçarxı nümayiş etdiriblər.

Tələbələr "Rəqəmlər gündəlik yaşamımızın əsas hissəsidir" , "Riyaziyyat elminə əhəmiyyətli töhfələr vermiş alimlər" və "Riyaziyyatda xüsusi əhəmiyyəti olan təməl teoremlər" kimi mövzularda çıxışlar ediblər.

# Tarix fakültəsinin tələbələri XX-XXI əsrlər Azərbaycan Rəngkarlığı Muzeyində

*Martın 5-də Tarix fakültəsinin tələbələrinin "YARAT" Müasir İncəsənət Mərkəzinin XX-XXI əsrlər Azərbaycan Rəngkarlığı Muzeyinə ekskursiyası təşkil olunub.*



Ekskursiya zamanı tələbələrə 2015-ci ilin mart ayından fəaliyyət göstərən Mərkəz haqqında məlumatlar verilib. Mərkəzin yalnız Azərbaycanda deyil, regionda müasir incəsənətin inkişafına töhfələr verdiyi diqqətə çatdırılıb.

Tələbələr ziyarət çərçivəsində XX-XXI əsrlər Azərbaycan Rəngkarlığı Muzeyində Azərbaycanın aparıcı rəssamlarının əsərləri ilə tanış olublar.

Qeyd edək ki, Dövlət Bayrağı Meydanının ərazisində yerləşən muzey Heydər Əliyev Fondu tərəfindən təsis edilib. Muzeyin təntənəli açılışı 2015-ci ilin iyun ayında baş tutub. Burada həm tanınmış, həm də nisbətən az tanınan rəssamların Milli Rəsm Qalereyası və Müasir İncəsənət Muzeyi kimi dövlət kolleksiyalarından götürülmüş əsərləri təqdim edilib.

**Buraxılışa məsul:** Afaq Sadıqova

**Redaksiya heyəti:** Əliş Ağamirzəyev, Vüqar Əliyev, Allahverdi Məmmədli, Cahangir Məmmədli, Xatirə Hüseynova, Samir Mirzəyev

**Dizayn - tərtibat:** Aynur Qurbanqızı

Bakı Dövlət Universitetinin mətbəəsində çap olunmuşdur.
**Çapa imzalanıb:** 31.03 .2022
**Tiraj:** 1000 nüsxə

Redaksiyanın mövqeyi ilə müəlliflərin mövqeyi üst-üstə düşməyə bilər.

Dərc olunan məqalələrin mətninə görə redaksiya məsuliyyət daşımır.

**Əlaqə nömrəsi:** (+994 12) 538 42 08